# QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 009 (6209) 16 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

*Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*

Bax 2



## Birinci vitse-prezident Mehriban Əliyeva: Azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm!



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində işğaldan azad olunmuş Şuşa şəhərinə səfərlə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: “Əziz qardaşlar və bacılar!

Bizim doğma, işğaldan azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm! Böyük məmnuniyyətlə bu gözəl diyara etdiyimiz səfərimizin görüntülərini sizinlə paylaşıram. Dərin hörmət və sevgilərlə,

**Sizin MEHRİBAN”.**

## “MEDİA Agentliyinin yaradılması bu sahədə həyata keçirilən institusional quruculuq prosesinin davam etdirilməsi siyasətinin tərkib hissəsidir”

Bax 9



Bundan sonrakı dövrdə Agentliyin səlahiyyət dairəsinə müvafiq olaraq istər çap mediası, istər onlayn, istərsə də audiovizual media sahəsində daha əhatəli, müasir dövrün çağırışlarına cavab verən, məzmun və forma baxımından yenilənmiş, daha uzunmüddətli hədəflərin əldə olunmasına yönələn layihələrin...

## MEDİA bizə daha geniş imkanlar və perspektivlər vəd edir

Bax 9



Ölkəmizdə bütün sahələr üzrə aparılan davamlı islahatlar çoxşaxəli inkişafımızı təmin etməklə yanaşı, demokratik prinsiplərə sadiqliyi də özündə əks etdirir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Media...

## Ceyhun Bayramov və Sergey Lavrov arasında telefon danışığı olub




Cari ilin 15 yanvar tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.. Bax 9

## Paşinyanın arvadı və qızları Moskvada təhqir edildi



Bax 11

## Uşaqpulu bərpa olunacaq?



Bax 12

## Azərbaycanla Ermənistan arasında nəqliyyat əlaqələrinin bərpası nələri vəd nədir?



Bax 12

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*

***"Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Koçaryan-Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq"***




"Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik"

"Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub. AZƏRTAC xəbər verir ki, sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar. Şuşaya gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir.

Azad edilmiş torpaqlara keçirik. Şanlı Azərbaycan Ordusu bu istiqamətdən hücum edərək düşməni qova-qova torpaqlarımızdan çıxardı.

Füzuli rayonunun ermənilər tərəfindən dağıdılmış Qaraxanbəyli kəndi.



Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək. Dövlətimizin başçısı və birinci xanım yolun təməlini qoydular.

Prezident İlham Əliyev: Füzuli-Şuşa yolunun təməlini qoyduq. İndi isə Füzuli hava limanının təməlini qoyacağıq və bu il hava limanının hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda beynəlxalq hava limanının təməlini qoydular.

Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.

Prezident İlham Əliyev:

- Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir.

**Ardı Səh. 3**



# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*



**Əvvəli-Səh-2**

Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq hava limanının tikintisi yaxın zamanlarda təmin edilməlidir.

Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.

Qarabağ Azərbaycandır!

XXX

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə yola düşdülər.

Prezident İlham Əliyev: Füzuli Beynəlxalq Hava Limanının təməlini qoyduq. Bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir ki, bu ildən başlayaraq artıq vətəndaşlar, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ bilsinlər. Bununla paralel olaraq, göstəriş verildi ki, Füzuli Beynəlxalq Hava Limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılsın. Eyni zamanda, Azərbaycanın digər şəhərlərindən - Lənkərandan, Naxçıvandan, Gəncədən buraya gəlib, Şuşaya rahat gedə bilərlər. İndi isə istiqamət Şuşa şəhəridir və yol boyunca əlavə məlumat veriləcəkdir.

Füzulidən Xocavənd rayonuna gedirik. Ondan sonra da Şuşa şəhərinə gedəcəyik. Qarşımızda gözəl mənzərə açılır, gözəl, vüqarlı dağlar, dağların başında qar, gözəl Azərbaycan diyarımızdayıq. Bu isə Şəkərcik kəndidir. Şəkərcik kəndi Füzuli şəhərinə bitişik olan kənddir. Füzuli şəhəri azad olunanda Şəkərcik uğrunda da şiddətli döyüşlər gedib. Baxın, düşmən işğal dövründə bütün bu əraziləri yerlə-yeksan edib. Biz artıq Füzuli şəhərində olmuşuq. O dəhşətli mənzərəni Azərbaycan xalqı görüb, bütün dünya görüb və görməlidir. Ona görə göstəriş verildi ki, xarici qonaqları Azərbaycana dəvət edib və bu bölgələrə gətirib, onlara erməni vəhşiliyi, əməlləri göstərilsin. Artıq bütün dünya görür ki, biz hansı vəhşi düşmənlə müharibə aparmışıq və hansı vəhşi düşməni məhv etmişik. Bu dağlar bizimdir.

Bura Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisidir. Baxın, bizim ölkəmiz necə də gözəldir. Bütün bu ərazini işğalçılardan qəhrəman Azərbaycan Ordusu azad edib. Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla burada xatirə şəkli çəkdirdilər.

XXX

Prezident İlham Əliyev: Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur.

Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra, əlbəttə ki, yol genişləndiriləcək və asfalt döşənəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə gəldilər. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.





Dövlətimizin başçısı hərbçilərlə görüşdü və çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir.

Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.

*Ardı Səh. 4*

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*

Əvvəli-Səh-3

Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər - dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.

Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi dırnaqarası nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan "Dağlıq Qarabağ respublikası"nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa. Görün, nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-beləvermə yib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq. Bütün dünya bizim Qələbəmizdən danışır. Bütün dünyanın aparıcı media orqanları Azərbaycanın parlaq qələbəsi haqqında yazırlar, reportajlar hazırlayırlar. İndi analitik məqalələr dərc edilir, kitablar da yazılacaq.



Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq. Müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də demişdim ki, bu öhdəliyi Ermənistan rəhbərliyi götürməlidir, deməlidir, tarix verməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks-təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu.





Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. "Vətən Müharibəsi Ordeni" Azərbaycanın ən ali hərbi ordenidir. "Zəfər" ordeni, "Qarabağ" ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə, uğurla gedərək Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını azad edib və noyabrın 8-də Şuşa şəhərini azad edib. Noyabrın 9-da düşmən təslim olub, ağ bayraq qaldırıb, diz çöküb və öz məğlubiyyətini etiraf edib.



Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm.

Ardı Səh. 5

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*











Əvvəli-Səh-4

Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar.

Biz bu şəhəri bərpa edəcəyik. Mənim göstərişimlə böyük bir qrup ezam edildi, bütün təhlil aparıldı. Dünən mənə ilk dəfə olaraq məruzə edildi, artıq müvafiq göstərişlər verilibdir. Yaxın zamanlarda biz Şuşanın bərpasını planlı şəkildə təmin edəcəyik. Əlbəttə ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq.

Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Hərbçilərlə xatirə şəkli çəkdirildi.

XXX

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər.

Dövlətimizin başçısı məscidə "Qurani-Şərif" hədiyyə etdi.

Prezident İlham Əliyev dedi:

-Saatlı məscidini ziyarət etdik, dualarımızı etdik, Məkkədən gətirilmiş "Qurani-Şərif"i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim "Qurani-Şərif"i bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.

Bildirməliyəm ki, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi. Artıq mütəxəssislər oraya ezam edildi və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox.

Ardı Səh. 6

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*



Əvvəli-Səh-5

Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy, onların xalqları buna cavab versinlər.

Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur - kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə ki, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb.



Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Bununla bağlı keçirilən tədbirdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllabaran edib.

Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi.



Ardı Səh. 7

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*

Əvvəli-Səh-6



Sonra müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq.

Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini.

Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!

XXX

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular.

Prezident İlham Əliyev: Mənfur düşmən burada özü üçün "meriya" adlı bir qurum yaratmışdı. Bu, Şuşa şəhərinin xunta başçısının qəbul otağı olub. Bu da keçmiş, batmış, gorbagor olmuş qondarma "Dağlıq Qarabağ respublikası"nın "Şuşi" şəhərinin "icra başçısı"nın otağı idi. "Şuşi" yox, Şuşa. Unutmasınlar, dəmir yumruq yerindədir. Bu otaqda isə quldurlar istirahət ediblər. Bu da onların kitablarıdır, baxın. Bunların yeri zibilxanadır. Hamısı muzey eksponatları olacaq. Kondisioneri söküb aparıblar. Şuşadan qaçanda o qaçaqaçda vaxt tapıb kondisioneri də aparıb oğrular. Buradan meydana mənzərə açılır. Sınmış şüşələr, eyni zamanda, büstlər də buradan görünür.

XXX

Ermənilər Şuşanı tərk edərkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol veriblər. Məsələn, bu binadakı bütün kondisionerlər və istilik sistemi avadanlıqlarını söküb aparıblar. Bu, şübhəsiz ki, acgözlüyün, amma həm də oğru xislətinin təzahürüdür. Bu, həm də 30 illik işğal dövründə Azərbaycan xalqının mədəniyyətini vandalizmə məruz qoyanların rəzil aqibətinin göstəricisidir.

XXX

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Natəvan bulağı ilə tanış oldular.

Prezident İlham Əliyev: 1982-ci ildə atamla birlikdə burada idik, Natəvan bulağının önündə. 39 ildən sonra müzəffər ordunun Ali Baş Komandanı kimi qayıtmışam. Şuşa yenə bizimdir! Şuşa yenə Azərbaycandır!

Dövlətimizin başçısı Şuşa şəhərinin su və elektrik enerjisi təchizatı ilə maraqlandı. Bildirildi ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz olunur. Prezident İlham Əliyev sovet dövründə uşaq sanatoriyası kimi fəaliyyət göstərən, işğaldan sonra ermənilər tərəfindən dağıdılan Natəvan sarayının xan qızının evi kimi bərpa ediləcəyini bildirdi. Dövlətimizin başçısı və ailə üzləri Natəvan sarayının önündə xatirə şəkli çəkdirdilər.

XXX

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bülbülün dağıdılmış ev-muzeyinə də baxdılar. Bülbülün dağıdılmış büstünü göstərən Prezident İlham Əliyev dedi:

-Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün, dahi Bülbülün büstünü, evini nə günə qoyublar. Cavabını artıqlaması ilə alıblar. Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı. Xocalı soyqırımını, mədəni soyqırımı törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu. Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcəkdir.

XXX

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərini də ziyarət etdilər.

Prezident İlham Əliyev bu məscidlərə də "Qurani-Şərif" bağışladı.

XXX

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular.

XXX

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub.

Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilən məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilmişdi. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid səksənə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən eksponatlar məhv edilib. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər.

Prezident İlham Əliyev: Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir.

Dövlətimizin başçısı və ailə üzvləri Vaqifin dağıdılmış məqbərəsinə baxdılar.

Məqbərənin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

- Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı.

Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi.

Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi, bax, bu məqbərənin tikintisində özünü göstərib. Bir daha demək istəyirəm ki, sovet rəsmi ideologiyasında xanlıqlar antimilli qurum kimi qələmə verilirdi, xanlar ictimaiyyətə düşmən kimi təqdim edilirdi. Sovet dövlətinin rəsmi ideologiyası elə idi ki, sanki Azərbaycan ərazisində mövcud olan xanlıqlar insanları yalnız istismar edirdi. Azərbaycan xalqı sanki gözləyirdi ki, bir xanlıqlar ləğv edilsin və sovet hakimiyyəti yaradılsın. Təbii ki, bu, cəfəngiyatdır, Azərbaycan xalqı əsrlərboyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. Əfsuslar olsun ki, tariximizin böyük əksəriyyəti müstəmləkəçilik formatında keçib. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bizi buna məcbur ediblər, zorla, öz xoşumuzla yox.

Ulu Öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada atam və görkəmli mədəniyyət xadimləri. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt. Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı.

Ardı Səh. 8

# İlham Əliyev: Biz bu torpaqlarda əbədi yaşayacağıq!

## *Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub*

**Əvvəli-Səh-7**

Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən getməsi o vaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi. Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. Xalq Cəbhəsi-Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? Xalq Cəbhəsi-Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər.

Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıb.

Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər. Bunu törədən Sarkisyan-Koçaryan cütlüyüdür. Bizim şəhərlərimizi bu günə salan Sarkisyan-Koçaryan cütlüyüdür. Quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri biz məhv etmişik. Onların ordusunu biz məhv etmişik. Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdik onların ordusunu. Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya. Amma beş gündən sonra dovşan kimi buradan qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı - Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Ağzını açıb çirkin sözlər deyir. Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Koçaryan-Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz



da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq.

Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik.

Vaqif Poeziya Günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək. "Xarı bülbül" festivalı bu il keçiriləcək. Biz artıq Şuşanın bərpasını başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıbdır. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də olublar.

Cıdır düzü tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidir. Bu ərazidə bir çox milli xalq oyunları keçirilirdi. Bu oyunların qalibinə bəzən qızıl pullar, bəzən isə taxıl, buğda, məişət əşyaları verilirdi. Bu düzdə güləş, qaçış, oxatma və sair oyunlar keçirilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırıblar.

Prezident İlham Əliyev:

-Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq.

Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər. İzitozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi.

Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib. Mən demişəm, burada - Cıdır düzündə bir daha demək istəyirəm ki, bu yumruq, həm gücdür, həm birlikdir. Onsuz da bizdə birlik kifayət qədər yüksək səviyyədə idi, bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli olan liderlər qələbə qazanırlar. Heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü.

Biz Qələbə qazanmışıq, Ermənistan məğlub olub. Biz, eyni zamanda, haqlıyıq. Bizim davamız haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqqədalət zəfər çaldı, güc hesabına, iradə hesabına, siyasət hesabına, birlik hesabına! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

XXX

İşğal dövründə ermənilər qondarma "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürmək üçün burada bina tikməyə başlamışdılar. Ancaq şanlı Azərbaycan Ordusu düşmənin bu niyyətini puç etdi. Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad olundu. Qondarma rejimin "parlamenti" binasının inşası yarımçıq qaldı.

Prezident İlham Əliyev dedi:

-Qondarma rejim bəyan etmişdi ki, "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Parlament" də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!

XXX

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış oldular.

Prezident İlham Əliyev: Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

Qeyd edək ki, Şuşa Realnı Məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar. 1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.

XXX

Yanvarın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yenidən Cıdır düzünə gəldilər.

Prezident İlham Əliyev:

-Bu gün yanvarın 15-də səhər tezdən yenə Cıdır düzünə gəldik. Artıq Şuşadan Bakıya yola düşürük. Getməmişdən əvvəl də istədik gələk bu müqəddəs, tarixi yerə, bir daha bu gözəlliyi seyr edək, Şuşaya "Çox sağ ol", "Gələn görüşlərədək" deyək. Biz qayıtmışıq öz doğma torpağımıza, Şuşanı azad etmişik. Bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq.

Dünən Şuşada bütün tarixi abidələri ziyarət etdik, müqəddəs məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Ancaq Şuşanı dağılmış, amma, eyni zamanda, əyilməmiş, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.

Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Mən dünən qeyd etdiyim kimi, Şuşada iki dəfə 1982-ci ildə olmuşam. O vaxt burada bir neçə kütləvi tədbir keçirilmişdir. Yəni, Şuşanı dünənki kimi, bugünkü kimi, bu formada görmək mənə nəsib olmamışdı. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir.

Bu gecə cəmi beş saat yatmışam. Saat 5-də oyanmışam, bilmirəm nəyə görə. Bəlkə dünənki gün çox həyəcanlı idi. Çünki Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz bir hissdir. Ola bilər, Şuşanın səfalı təbiəti, havası kifayət edir ki, insan heç çox yatmaq da istəmir. Bakıya dönməzdən əvvəl yenidən gəlmişəm buraya, Cıdır düzünə, Şuşanın tarixi yerinə ki, bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

X X X

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə çay süfrəsinə qonaq oldular.

Prezident İlham Əliyev: Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!

# "MEDİA Agentliyinin yaradılması bu sahədə həyata keçirilən institusional quruculuq prosesinin davam etdirilməsi siyasətinin tərkib hissəsidir"

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***



**- Əhməd müəllim, Azərbaycan Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi - MEDİA yaradıldı. Media sahəsində müşahidə edilən yeniliklər nədən irəli gəlir?**

- İlk növbədə, fürsətdən istifadə edərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə münasibətilə hər kəsi, o cümlədən bu müharibənin informasiya cəbhəsində uğurla mübarizə aparan media nümayəndələrini təbrik edirəm. Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi informasiya məkanında aparılan mübarizənin əhəmiyyətini bir daha sübut etdi. Cənab Prezidentin dəfələrlə qeyd etdiyi kimi, biz təkcə döyüş meydanında və siyasi müstəvidə deyil, həm də informasiya məkanında qələbə qazandıq. Məhz belə bir tarixi zamanda bu yüksək etimadın göstərilməsi böyük şərəf və eyni zamanda, böyük məsuliyyətdir. Bu inamı doğrultmaq üçün var gücümüzlə çalışacağıq.

Ötən müddət ərzində dövrün tələbləri dəyişmiş, informasiya məkanında yeni reallıqlar meydana gəlmiş, həm media subyektlərinin, həm də jurnalistlərin fəaliyyəti tamamilə yeni məzmun qazanmışdır. Elektron informasiya cəmiyyətinə sürətli keçid, qlobal informasiya məkanında tamamilə fərqli məzmunlu rəqabət mühitinin və fəaliyyət prinsiplərinin formalaşması, o cümlədən müasir dövrün çağırışları media subyektlərinin fəaliyyətində köklü dəyişikliklərə əsas yaratmışdır. Bununla əlaqədar yerli media subyektlərinin rəqabət qabiliyyətinin və keyfiyyət səviyyəsinin artırılması, bu sahədə peşəkar mütəxəssislərin hazırlanması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, xüsusilə informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi zərurəti meydana gəlmişdir. Məhz bu səbəbdən cənab Prezident tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalandı.

**- "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda nəzərdə tutulan məsələlərin yerinə yetirilməsi medianın inkişafına necə təsir göstərəcək?**

- Qeyd edilən Fərmanın Azərbaycanda cəmiyyətin hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə duyulan ehtiyacla əlaqədar olduğu şübhəsizdir. Tətbiq olunacaq yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyəti obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verəcəkdir.

**- Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi öz fəaliyyətini hansı istiqamətlərdə həyata keçirəcək?**

- Medianın İnkişafı Agentliyinin yaradılması ölkədə medianın inkişafının dəstəklənməsi və bu sahədə həyata keçirilən institusional quruculuq prosesinin davam etdirilməsi siyasətinin tərkib hissəsidir. Nizamnaməyə əsasən Agentlik media subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, habelə kütləvi informasiya istifadəçilərinin media savadlılığının yüksəldilməsi və digər istiqamətlərdə tədbirlər həyata keçirəcəkdir.

Bununla yanaşı, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA Agentliyinin əsas prioritetlərindəndir.

Eyni zamanda, media subyektlərinə müvafiq sahədə normativ hüquqi aktların şərhi və izahı ilə bağlı köməklik göstərmək, bu sahədə dövlət dəstəyinin imkan və mexanizmləri barədə məlumat vermək, inkişaf strategiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək də Agentliyin daim diqqətində saxlayacağı məsələlərdəndir. MEDİA Agentliyi sadalanan çoxşaxəli fəaliyyət istiqamətləri ilə yanaşı, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasına dəstək göstərilməsi istiqamətində tədbirlərin görülməsini də nəzərdə tutur.

**- Media subyektlərinin rəqabət qabiliyyətinin artırılması məqsədilə daha hansı tədbirlərin görülməsi nəzərdə tutulur?**

- Bu gün dünyada media sərhədlərinin silinməsi, elektron informasiya cəmiyyətinə keçid nəticəsində kütləvi informasiyanın yayılma sürətinin kəskin artması, media məkanının dünyaya açılması yerli media subyektlərini aparıcı xarici media subyektləri ilə vahid informasiya mühitində rəqabət aparmaq reallığı ilə qarşı-qarşıya qoymuşdur. Bu vəziyyət beynəlxalq praktikanın dərindən öyrənilməsini, dünyanın qabaqcıl media subyektlərinin fəaliyyət prinsiplərinin araşdırılmasını, bu sahədə təcrübə mübadiləsinin aparılmasını tələb edir. Buna görə də xarici media subyektləri, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində zəruri addımların atılması planlaşdırılır.

Bundan sonrakı dövrdə Agentliyin səlahiyyət dairəsinə müvafiq olaraq istər çap mediası, istər onlayn, istərsə də audiovizual media sahəsində daha əhatəli, müasir dövrün çağırışlarına cavab verən, məzmun və forma baxımından yenilənmiş, daha uzunmüddətli hədəflərin əldə olunmasına yönələn layihələrin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə zəruri məlumatlar toplanacaq, ictimai rəyin öyrənilməsi üçün tədbirlər görüləcək və müvafiq təhlillər aparılacaqdır.

Bununla yanaşı, bir məsələyə diqqət çəkmək istərdik ki, onlayn media subyektlərinin fəaliyyətinə dair məsələlər də Agentliyin səlahiyyət dairəsinə daxil edilmiş, onların informasiya məkanındakı rolu nəzərə alınmaqla fəaliyyətlərinin stimullaşdırılması və rəqabət qabiliyyətlərinin artırılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Media sahəsində fəaliyyət göstərən subyektlərə, onların redaksiyalarına və jurnalistlərə dair məlumatların sistemləşdirilməsinə, nəticədə yerli media məkanının ümumi xəritəsinin və mənzərəsinin formalaşdırılmasına şərait yaradılması məqsədilə müvafiq informasiya bazasının yaradılması qarşıda duran vəzifələr sırasındadır. Bu yolla keyfiyyətli xəbər istehsalının təmin edilməsinə, bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə, həmçinin kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətində inkişafa nail olunacaq.

# Ceyhun Bayramov və Sergey Lavrov arasında telefon danışığı olub




Cari ilin 15 yanvar tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirlər 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı son vəziyyəti, eləcə də 11 yanvar 2021-ci il tarixində Moskvada imzalanmış birgə bəyanatdan irəli gələn məsələlər üzrə fikir mübadiləsi apariblar. Tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələləri və qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

# MEDİA bizə daha geniş imkanlar və perspektivlər vəd edir



Ölkəmizdə bütün sahələr üzrə aparılan davamlı islahatlar çoxşaxəli inkişafımızı təmin etməklə yanaşı, demokratik prinsiplərə sadiqliyi də özündə əks etdirir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı mühüm əhəmiyyətə malikdir. Fərmana əsasən, Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi" təsdiq edilib. Bəs Medianın İnkişafı Agentliyinin yaradılması mediamızın bu günü və gələcəyi üçün nə vəd edir?

Məsələ ilə bağlı fikirlərini "İki sahil" qəzeti ilə bölüşən "Səs" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəhruz Quliyev bildirdi ki, Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması ilk növbədə milli mətbuatımızın, bütövlükdə isə jurnalist cameəsinin inkişafı yönündə, eləcə də zamanın çağırışları, sifarişləri istiqamətində verilən mükəmməl qərardır: "Hazırkı dövrə qədər Prezident İlham Əliyev müstəqil və müasir mətbuatımızın geniş fəaliyyət spektrinə malik olması üçün bir sıra mühüm qərarlar verib və artıq qlobal dünyanın tələbləri artdıqca media sahəsində də müxtəlif kreativliklərə, yeni üslublara, idarəçilik mexanizmlərinə ehtiyac duyulur, növbəti vəzifələr məqsəd olaraq qarşıya çıxır. Təbii ki, yeni qurumun yaradılması həm də bütövlükdə ölkədə aparılan çoxşaxəli islahatların davamıdır və biz də mətbuat təmsilçiləri olaraq bu islahatların mediaya da öz töhfəsini verəcəyinə inanırdıq. Artıq növbəti addım atılıb və bizi qarşıda kifayət qədər böyük işlər gözləyir. Xüsusilə KİVDF-dən fərqli olaraq problemlərin aradan qaldırılması üçün geniş imkanlar və fürsətlər mövcuddur. Nəzərə alsaq ki, bu gün informasiya texnologiyaları durmadan yenilənir və bu yeniliklər idarəçilikdə də müəyyən tələblər irəli sürür, bu zaman belə qənaətə gələ bilərik ki, artıq yeni dövrün yeni tələbləri fonunda yeni mediası meydana çıxıb. Bu baxımdan, dövlət başçımızın verdiyi qərar özündə bu məziyyətləri də ehtiva etməkdədir".

"Nədir bu yeniliklər?" deyən B. Quliyev bildirdi ki, bu, ilk növbədə medianın biznes strukturu kimi özünüidarə sistemini qurmasına mükəmməl imkanlar yaradır: "Məsələn, biz inanırıq ki, qarşıdakı zamanda hər hansı bir işlək, cəmiyyətdə öz yerini, mövqeyini müəyyən etmiş redaksiyalar, media qrupları öz iş üslublarını daha aktiv qaydada artırmaq üçün kreditləşmə siyasətindən bəhrələnə biləcək və bununla həm işgörmə potensialını artıracaq, həm də işçi qüvvəsinin sosial tələblərini daha rahat şəkildə təmin edəcək. Əslində, bu kimi təkliflər daha əvvəllər də verilirdi, lakin indi bu təkliflərin əməli işə çevrilməsi faktı göz önündədir".

"Düşünürəm ki, MEDİA eyni zamanda sosial şəbəkələrə nəzarət və fəaliyyət mexanizmlərində də yeniliklərə imza atacaq" deyən baş redaktor hesab edir ki, hazırda cəmiyyətin böyük kəsimi sosial şəbəkələrdədir və artıq sosial media deyilən bir ifadə də müasir zamanımızın ayrılmaz parçasına çevrilib: "Bu istiqamətdə aparılan tənzimləmələr isə mətbuatın sosial şəbəkələrə də transfer imkanlarını artıracaq, oxucu, izləyici auditoriyasının genişlənməsinə mümkün şəraitləri yaradacaq. Əsasən də, jurnalistlə bloggerin fərqini ortaya çıxarmaqla hansının mətbuat, hansının isə sosial şəbəkə fərdi olduğunu dəqiqləşdirəcək".

B. Quliyev əvvəlki işlək mexanizimlə - KİVDF ilə MEDİA-nın fərqini digər reallıqla da ölçüb və bildirdi ki, əgər KİVDF mövcud zamana qədər əsasən print mediasına daha çox önəm verirdisə, artıq MEDİA onlayn mətbuatın, agentlik və portalların, internet televiziyalarının tərəqqisinə meydan açmaq üzrədir: "Əlbəttə, belə olan halda Azərbaycan mətbuatının dünya miqyasındakı imkanları da artacaq və söz yox ki, genişlənən areal eyni zamanda ölkəmizdə baş verən hadisələrin daha operativ qaydada beynəlxalq aləmə çatdırılmasına öz səmərələrini verəcək".

Baş redaktorun sözlərinə görə, hazırkı vaxta qədər reketçiliklə mübarizə metodikalarında çatışmayan cəhətlər də var idi və MEDİA mətbuatımızın bu "kor bağırsağının" da birdəfəlik ləğv edilməsinə münbit şərait yaradır: "Artıq burada jurnalistlərin təkmilləşdirilməsi, peşə fəaliyyətlərinə riayəti, iş prinsiplərinə nəzarət halları daha da artacaq və belə desək, təmiz, şəffaf bir medianın formalaşması üçün bu qurumun verdiyi imkanlar geniş spektorları əhatə edir. Təbii ki, bütün bunların təməlində bilavasitə jurnalistlərin dostu, qayğıkeşi Prezident İlham Əliyevin iradəsi və diqqəti dayanır və Onun Azərbaycan mətbuatına verdiyi önəm də isbat edir ki, qarşıda bizləri daha böyük uğurlar, fəaliyyətlər, perspektivlər gözləyir".

***Mənsumə Babayeva, "İki sahil"***

# "Ağrılı sual". İlham Əliyev İrəvana nə təklif etdi?

*"3 ölkənin liderləri təsadüfən iqtisadiyyatdan başlamadılar: ticarət olduğu zaman qarşıdurmalar səngiyir. Tam əməkdaşlıq və barışığa yol açan iqtisadi əlaqələrdir"*



***Rusiyanın nüfuzlu media orqanlarından olan RİA-Novosti-də Azərbaycan-Ermənistan danışıqları gaqda maraqlı analitik yazı dərc olunub. Həmin yazını oxucularımıza təqdim edirik. Ermənistan Rusiya ilə dəmir yolu əlaqəsi alacaq, Azərbaycan isə Ermənistan ərazisindən Naxçıvana birbaşa dəhlizə sahib olacaq. Bunu Prezident İlham Əliyev Moskvada Vladimir Putin və Nikol Paşinyanla görüşdən sonra söylədi. Nəqliyyat məsələsi münaqişə edən ölkələr üçün niyə bu qədər vacibdir?***




***Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

### Müdriklik və iradə

Rusiya, Ermənistan və Azərbaycanın üç lideri danışdı, sonra Rusiya prezidenti Əliyev və Paşinyanla ayrıca danışdı. Azərbaycan prezidenti və Ermənistanın baş naziri müxtəlif yollarla vurğu etdilər. Əliyev xatırladıb ki, bu, bölgədəki dövlət liderlərinin 2-ci ortaq bəyanatıdır. Ancaq yeni sənədin əhəmiyyəti Qafqazdakı yolların açılmasına kömək edəcəkdir.

"Otuz ildən çox bir müddətdən sonra Azərbaycan Ermənistan ərazisindən keçən nəqliyyat rabitəsi yolu ilə Naxçıvan Muxtar Respublikası ilə əlaqəni bərpa edəcək"- Əliyev dedi. "Ermənistan Rusiya və İrana, biz isə- Türkiyə bazarına çıxış əldə edəcəyik. Bundan əlavə, Türkiyə və Rusiya dəmir yolu arteriyaları birləşəcək"- Azərbaycan Prezidenti əlavə edib.

Əliyev barışıq nümayiş etdirdi. "Ermənistanla Azərbaycan arasında illərdir inkişaf edən vəziyyət sonunda həll edildi" deyərək, erməni tərəfinin atəşkəs bəyanatına meydan oxumayacağına və iki xalqın "gələcək haqqında düşünmək üçün özündə iradə və müdriklik" tapacağına ümid etdiyini söylədi.

Azərbaycan Prezidenti Moskvadakı görüşündən əvvəl də İrəvanla əlaqələr qurmağa hazırlaşırdı. İlin sonunda Bakının Ermənistanla sərhədə gedən dəmir yolunun texniki-iqtisadi əsaslandırmasını hazırladığı məlum oldu. "İnanıram ki, tikinti maksimum 2 il çəkəcək" dedi Əliyev. Və "Azərbaycan, Ermənistan və Türkiyə arasında bir dəhlizin yaranmasına böyük əhəmiyyət verdiyini" sözlərinə əlavə etdi. 2021-ci ilin yanvarında KİV-lər xəbər verdilər: Füzulidə Azərbaycana gedən ərazilərdə beynəlxalq hava limanı tikiləcək.

Bölgədəki nəqliyyat əlaqələrinin bərpası - Qarabağ, İrəvan və Bakı arasındakı münaqişə səbəbi ilə əlaqələrin kəsildiyi 1990-cı illərin nəticələrinin aradan qaldırılması deməkdir. Bu, Ermənistanı ən ağrılı şəkildə vurdu: ölkə özünü blokada ilə müqayisə olunan bir vəziyyətdə tapdı. Sovet dövründə yükün əhəmiyyətli bir hissəsi Azərbaycan SSR ərazisindən keçirdi.

Vəziyyət Gürcüstan-Abxaziya münaqişəsinin başlamasından və Gürcüstanda vətəndaş müharibəsindən sonra daha da pisləşdi: Suxumidən keçən dəmir yolu xətti bağlandı. Türkiyə ilə sərhəd də bağlanmışdı. Bəzi məlumatlara görə, Ermənistanın xarici ticarəti sözün əsl mənasında 1992-ci ildə çökdü - 1990-cı illə müqayisədə dövriyyə 94 faiz azaldı. Rusiya, Ermənistan və Azərbaycan 2020-ci ilin noyabrında Qarabağda hərbi əməliyyatların dayandırılması barədə bəyanat imzalayarkən rabitənin bərpası barədə razılığa gəldilər.

### Paşinyan niyə Moskvaya getdi?

Ancaq yanvar ayında Moskvada keçirilən görüşdə Paşinyan, həll olunmamış humanitar problemlərin ona iqtisadiyyat və tranziti müzakirə etməsini əngəllədiyini vurğuladı. "Düşünürəm ki, hamımız üçün ən həssas və ağrılı mövzu hərbi əsirlər, itkin düşənlər, ölülərin cəsədlərinin mübadiləsi ilə bağlı məsələlərdir"- deyə Ermənistan baş naziri izah etdi.

Ölkəsindəki siyasi mənalı fon nəqliyyat danışıqları üçün əlverişli olmadı. İlin sonunda Yerevanda Paşinyanın istefasını tələb edən açıq bir mitinq elan edildi; müxalifət onun kortejinin qarşısındakı yolları bağladı. Hökumət başçısı müxaliflərinin bəyənilməyən şərhləri altında Moskvaya uçdu. Məsələn, hüquq müdafiəçisi Avetik İşxanyan, baş nazirin yeni bir "təslim aktı" imzalayıb imzalamayacağını sualını irəli sürdü.

Hüquq-mühafizə orqanlarının əməkdaşları Baş nazir Nikol Paşinyanın gediş-gəlişini təmin etmək üçün İrəvanın Zvartnots hava limanına gedən yolu bağlamışdılar.

Ermənistanda bir çox insan Qarabağdakı atəşkəs elanını məğlubiyyət kimi qəbul edir. Noyabr 2020-ci ildə Moskvanın vasitəçiliyi ilə Bakı və İrəvan atəşi dayandırdı, məhkumların və ölülərin cəsədlərinin mübadiləsi barədə razılığa gəlindi. Azərbaycan tanınmamış "Dağlıq Qarabağ Respublikası"nın nəzarətində olan Kəlbəcər, Laçın və Ağdam rayonlarını geri aldı. Bölgəyə bir Rusiya sülhməramlı kontingenti yerləşdirildi.

Sənədin nəşri Ermənistanda etiraz dalğasına səbəb oldu. Putinlə görüş zamanı da müxaliflər Paşinyanı gözardı etmədilər- Moskvadakı Ermənistan səfirliyinin yaxınlığında nümayiş baş verdi.

Ən vacib olan- məhbusların sərbəst buraxılması barədə sözlər baş nazirə kömək etmədi. Vətənində hələ də "Azərbaycan gündəmi" ni müzakirə etdiyi üçün qınandı. Aydınlanmış Ermənistan" partiyasının hökumət lideri Edmon Marukyan "Bütün hökumətyönlü kanallar yeni razılaşmaya uyğun olaraq Ermənistanı İran və Rusiya ilə birləşdirəcək bir dəmir yolu açacaqların məmnuniyyətlə yayımladılar. Bu arada, erməni xalqı görüşdən bir şeyi- hərbi əsirlərin qısa müddətdə geri qaytarılmasına dair bir razılaşma gözləyirdi, amma bu baş vermədi"-dedi.

Daha əvvəl - hələ noyabr ayında - Paşinyan yolların blokdan çıxarılması məsələsini ən vacib məsələ hesab edirdi. "Yaxın gələcəkdə buna diqqət yetirməliyik. Yalnız Ermənistanda deyil, bütün bölgədə iqtisadi sabitləşmə barədə danışarkən konkret addımlar atmalıyıq"- baş nazir deyirdi.

Ölkədə gedən siyasi böhrandan belə qonşu ilə münasibətlərin normallaşması xəbərləri yayılırdı. Dekabr ayında Bakıdan qalxan bir Türkiyə Hava Yolları təyyarəsi Ermənistan ərazisi üzərindən İstanbula uçdu. Azərbaycan mətbuatı bu faktı "tarixi uçuş" adlandırdı. Və rəsmi mənbələrin Ermənistanın hava məkanının açılması barədə məlumat vermədiyini qeyd etdi.

### Stereotiplərin ağrılı şəkildə pozulması

Tarix elmləri namizədi, Qafqaz üzrə ekspert Stanislav Tarasov növbəti Moskva görüşünün mürəkkəb bir diplomatik oyunun yalnız müqəddiməsi olduğuna inanır: "Şüuru təyin edən varlıq haqqında marksist tezisdən istifadə etsək, ticarət konfliktdə olan xalqların psixologiyasını dəyişdirməlidir. Ermənistan və bütövlükdə region gələcəkdə bundan faydalanacaq, amma indi İrəvanda vərdiş edilmiş fikirlərin ağrılı bir şəkildə parçalanması var".

Ekspert Minsk formatının tədricən üçtərəfli formata (Rusiya, Ermənistan və Azərbaycan) çevrilməsini istisna etmir: "Rusiyalı sülhməramlılar Qarabağa köçdükdən sonra münaqişənin siyasi və diplomatik bir kanala köçürülməsi qaçılmazdır. Heç kim üçüncü bir şəxslə- Rusiya ilə qarşıdurma istəmir. Hətta Ankara artıq İrəvanla əməkdaşlıq etməyə meyllidir".

Rusiya eksperti, Qafqaz üzrə mütəxəssis Nurlan Qasımov marşrutların açılmasından hər üç ölkənin faydalanacağına inanır: "Əvvəllər Rusiya ilə Ermənistan arasında əlaqə hava yolu ilə və ya Hərbi Gürcüstan magistralı ilə həyata keçirilirdi -hansı ki, bu quru yolu əlverişsiz və bəzən qar tıxanması səbəbindən əlçatmaz idi. İndi ölkələr quru əlaqəsi alır. Bu, Avrasiya İqtisadi İttifaqının üzvü olan Ermənistan üçün vacibdir. Və Rusiya hərbi bazası üçün: yüklər yalnız təyyarələrlə daşınmamalıdır". Qasımov vurğulayır ki, Azərbaycan Rusiyadan hərbi tranziti özünə təhlükə hesab etmir.

Mütəxəssis eyni fikirdədir: Qarabağda həll olunmamış bir çox problem var - və Paşinyanın mövqeyi başa düşülə bilər. Ancaq 3 ölkənin liderləri təsadüfən iqtisadiyyatdan başlamadılar: ticarət olduğu zaman qarşıdurmalar səngiyir. Tam əməkdaşlıq və barışığa yol açan iqtisadi əlaqələrdir.

***Müəllif: Anton Lisitsın***
***Tərcümə: Elçin Bayramlı***

# YAP Binəqədi rayon qadınlar şurasının hesabat iclası keçirildi




***Yanvarın 15-də Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Qadınlar Şurasının 2020-ci ilin yekunlarına dair onlayn hesabat iclası keçirildi. Hesabat iclasında YAP Qadınlar Şurasının sədr müavini, Milli Məclisin deputatı Sevinc Fətəliyeva, YAP Binəqədi Rayon Təşkilatının sədri Ramiz Göyüşov, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini Sevinc Süleymanova, YAP Binəqədi Rayon Qadınlar Şurasının sədri Aytac Əliyeva həmçinin rayonun ictimai fəal xanımlar, YAP Binəqədi rayon Qadınlar Şurasının üzvləri iştirak edirdi.***

Giriş sözünü YAP Binəqədi Rayon Qadınlar Şurasının sədri Aytac Əliyeva açdı. O, qonaqları salamladıqdan sonra YAP Binəqədi Rayon Qadınlar Şurasının 2020 - ci ildə həyata keçirdiyi tədbirlər haqqında geniş hesabat məruzə ilə çıxış etdi. Pandemiya dövründə Binəqədi rayonunun ictimai - siyasi həyatında yer alan xanımların aktivliyini yüksək qiymətləndirən natiq, istər səhiyyə, istər təhsil, istərsə də həyat fəaliyyətinin müxtəlif sahələrində təmsil olunan qadınların vəzifələrini məsuliyyətlə icra etdiklərini bildirdi. Aytac Əliyeva 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərə toxunaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət, əldə olunan uğurlar, Ali Baş Komandanın və birinci xanım Mehriban Əliyevanın Şuşaya olan səfəri haqqında geniş fikir səsləndirdi. O, Azərbaycanın əzəli torpaqlarının - Dağlıq Qarabağ və ətraf rayonların, məhz müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin və rəşadətli Azərbaycan ordusunun əzmi, gücü, hərbi üstünlüyü ilə işğaldan azad olunduğunu diqqətə çatdırdı. Ölkə rəhbərinin Ümummilli Lider Heydər Əliyevin ən layiqli siyasi varis olduğunu bildirən natiq, Azərbaycanın sadəcə regionun deyil, eləcə də dünya ölkələri arasında vacib aktoru olduğunu qeyd etdi. Mübarizənin artıq meydanlarda, kürsülərdə deyil, sosial şəbəkələrdə aparıldığını və bu istiqamətdə də rayon qadınlarının fəal rol almalı olduqlarını deyən Aytac Əliyeva, 2021-ci il üçün nəzərdə tutulmuş tədbirlər planında bu kimi məqamlara daha çox diqqət göstərildiyini vurğuladı. Natiq Binəqədi rayonunun ictimai-siyasi həyatında aktiv təmsil olunan xanımlarını ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasəti gələcəkdə də fəal təbliğ etməyə çağırdı.

Binəqədi rayonunun təhsil sahəsində əldə etdiyi uğurları haqqında danışan YAP Binəqədi rayon Qadınlar Şurasının İdarə Heyətinin üzvü, 299 saylı məktəbin direktoru Solmaz Kazımova pandemiya dövründə müəllim kollektivinin məsuliyyətinin daha çox olduğunu diqqətə çatdırdı. O, dərslərin onlayn keçirilməsinə baxmayaraq, məktəb məzunlarının dövlət imtahanlarında yüksək nəticə göstərdiklərindən, həmçinin 44 günlük Vətən müharibəsində könüllü iştirakından və torpaqlarımızın işğaldan azad edilməsində göstərdikləri şücaətdən söz açdı. Bu sahə məktəblərdə çalışan YAP üzvlərinin fəal rol oynadığını diqqətə çatdırdı.

Həm pandemiya dövründə, həm də Vətən müharibəsi dövründə tibb işçilərinin göstərdikləri həssaslıq və şəhid olmuş həkimlərdən söz açan YAP Binəqədi rayon Qadınlar Şurasının İdarə Heyətinin üzvləri Məlahət İbrahimova və Nahidə Mahmudova səhiyyəmizin nailiyyətləri haqqında çıxış etdilər. Natiqlər hazırda vaksinasiya hazırlıq dövründə Azərbaycanın qabaqcıl dünya ölkələri ilə bir sırada durduğunu bildirdilər. Həmçinin, Prezident cənab İlham Əliyevə tibb işçilərini diqqətdən kənar saxlamadığına, onları çoxsaylı medallarla təltif etdiyinə görə təşəkkürlərini çatdırdılar.

Daha sonra çıxış edən Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova dövlət idarəçiliyində qadınlara göstərilən diqqətdən danışdı. O, Binəqədi rayonunun ictimai-siyasi həyatında rol alan qadınların,xüsusilə YAP üzvlərinin bütün məsələlərə həssaslıqla yanaşdığını, 44 günlük Vətən müharibəsində Binəqədi rayonundan olan şəhidlərin dənf mərasimində iştirak etdiklərini, sonradan isə həmin ailələrin yanında olduqlarını bildirdi və qadınlara fəallıqlarına görə təşəkkür etdi.

Hesabat iclasında qonaq qismində çıxış edən Milli Məclisin deputatı, YAP Qadınlar Şurasının sədr müavini Sevinc Fətəliyeva YAP Binəqədi rayon təşkilatı Qadınlar Şurasının 2020-ci ildəki fəaliyyətinin günün tələbləri çərçivəsində qurulduğunu diqqətə çatdırdı. O, Azərbaycan xalqının ötən dövrdə sıx birləşdiyini, üzləşdiyi çətinliklərə baxmayaraq, sınaqdan alnıaçıq çıxdını bildirdi. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasına hesablandığını və bu istiqamətdə hər kəsin Ona dəstək verməli olduğunu qeyd etdi. Hərbi meydanda qazanılmış Zəfərə toxunan millət vəkili, qarşıdakı mərhələdə Qarabağda, işğaldan azad edilmiş rayonlarda həyata keçiriləcək yenidənqurma işlərində hamının yaxından iştirak etməli olduğunu dedi. O, YAP Binəqədi rayon Qadınlar Şurasının gələcək fəaliyyətinə uğurlar arzuladı.

Daha sonra YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış etdi. O, YAP Binəqədi rayon Qadınlar Şurasının 2020-ci ildəki fəaliyyətinin qənaətbəxş olduğunu bildirdi. Bundan əlavə, natiq, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən uğurlardan, bunun vahid siyasi kurs əsasında icra edildiyindən və Ümummilli Lider Heydər Əliyevin siyasi irsindən bəhs etdi. İstər pandemiya dövründə, istərsə də Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Zəfərin, məhz Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlı olduğunu, adının tarixə yazıldığını diqqətə çatdırdı. Prezident və ailəsinin Şuşaya olan səfərindən danışan Ramiz Göyüşov, bunun hamıda sevinc və qürur hissi, fəxr duyğusu yaratdığını dedi. O, Qadınlar Şurasını qarşıdakı mərhələdə daha əzmlə, təşəbbüskarlıqla fəaliyyət göstərməyə çağırdı. Çünki bütün Azərbaycan xalqı Qarabağın yenidən qurulmasında yer almalı, öz töhfəsini verməlidir.

Sonda 2020-ci ildə rayonun ictimai-siyasi həyatında fəal rol alan bir qrup xanım YAP Binəqədi rayon təşkilatı adından Fəxri Fərmanla təltif edildi.

***Zümrüd BAYRAMOVA***

## Ermənistanda qubernator istefa verib

Ermənistanın Şirak vilayətinin qubernatoru Tiqran Petrosyan istefa ərizəsi yazıb. "İki sahil" xəbər verir ki, məlumatı "Sputnik Armeniya" yayıb. Məlumata görə, o, ərizəsini hökumətə təqdim edib. Qeyd edək ki, T.Petrosyan 2019-cu il fevralın 6-da bu vəzifəyə təyin edilib.

## "Hayastani Anrapetutyun": Dram sürətlə düşür, qazın qiyməti isə dayanmadan qalxır



"Yaxın vaxtlarda Ermənistanda qazın qiymətinin artırılması daha real görünür". SİA xəbər verir ki, bu haqda ölkənin "Hayastani Anrapetutyun" qəzeti yazır. Erməni nəşrinə görə, baxmayaraq ki, 2021-ci ildə Rusiyadan Ermənistana ötürülən qazın qiyməti dəyişilməyib və 1000 kubmetrə görə 165 dollar təşkil edir , ancaq bu yalnız birinci kvartalda dəyişilməyəcək. "Nəyə görə mütəxəssislər qaza olan tarifin artacağını inamla bildirirlər? Ona görə ki, ötən ilin iyulundan nəhəng istehlakçılar üçün həmin tarif qaldırılmışdı", deyə erməni qəzeti yazır və qeyd edir ki, hər il Rusiyadan Ermənistana 2.2 milyard kubmetrə yazın qaz ixrac edilir və buna görə 1000 kubmetrə görə 165 dollar ödənilir. SİTAT: Təbii qazın qiyməti nəhəng istehlakçılar üçün dollarla təyin edilir, dolların kursu isə hər ay korrektə olunur. Əhali üçün isə tarif dramla (erməni milli valyutası) müəyyən edilir. Rusiyadan ixrac edilən 2.2 milyard kubmetr qazın 0,7 milyard kubmetrini əhali istifadə edir. Yəni ixrac edilən ümumi həcmin 31%-i bu il dövlət büdcəsinin təsdiqi ilə kursa görə dramla hesablanır".

Qəzet yaranan çətinliyi ötən il noyabrın 9-da (10-da) imzalanmış üçtərəfli bəyanatla əlaqələndirir və qeyd edir ki, həmin imzalanmadan sonra dram sürətli şəkildə 6.6%-ə qədər endi və 1 dollara görə 525 dram təşkil etdi.

***Rövşən RƏSULOV***

## Paşinyanın arvadı və qızları Moskvada təhqir edildi



Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan və qızları Moskva aeroportunda qalmaqalla üzləşiblər. Bu barədə "Report" məlumat yayıb. Qeyd edilir ki, hadisə ilə əlaqədar aeroportun gəlmə zalında təxliyə elan olunub.

Məlumata görə, bundan əvvəl Rusiyanın erməni icmasının nümayəndələri, rəsmiləri zorla aeroportun görüş zalına soxulublar və Anna Akopyanı, qızları Şuşan və Marianı təhqiredici "satqınlar" ifadəsi ilə qarşılayıblar. Nikol Paşinyanın Ermənistanın Rusiyadakı səfiri vasitəsilə ailə üzvlərinin təhlükəsizliyini təmin etməyi xahiş etdiyi Rusiya Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları təxliyə elan ediblər və zala girişi bağlayıblar. Paşinyanın arvadı və qızları ehtiyat çıxış qapısı vasitəsilə avtomobillərə qədər müşayiət edilib. Erməni icmasının üzvləri onları "satqınlar, əclaflar" şüarları ilə yola salıblar. Daha əvvəl teleqram kanal bildirib ki, Paşinyanın arvadı və qızları 10 silahlı mühafizəçinin müşayiəti ilə Rusiya vətəndaşlığını almaq üçün Moskvaya gedib. "Mediaport" qeyd edib ki, Anna Akopyan və qızları Moskvada ermənilərdən birinə məxsus oteldə qalırlar.

# Uşaqpulu bərpa olunacaq?

***Son günlər uşaqpulu məsələsi yenidən aktuallaşıb. Bu məsələsə 20 ildən çoxdur ki, həm parlamentdə, həm mediada, həm ictimai dairələrdə müzakirə olunur, lakin hələ də bununla bağlı yekun qərara yoxdur. Halbuki, dünyanın əksər ölkələrində uşaqpulu verilir. Bu, dövlətin demoqrafik vəziyyəti sağlamlaşdırması, əhali artımının stimullaşdırması, sağlam gələcəyə kapital yatırılması tədbiri kimi nəzərdən keçirilir. Əvvəlcə, bəzi ölkələrdə bu sahədə mövcud vəziyyəti nəzərdən keçirək.***



Rusiyada 1-ci uşağa bizim pulla götürdükdə 8 min manat, 2-ci və sonrakı uşaqların hər birinə 13 min manat, 3-cü uşaqdan sonra ev və ya torpaq sahəsi, həmçinin digər sosial imtiyazlar verilir. Bunun üstünə hər uşağa görə ayda 300 dolları da gəldikdə əməlli-başlı sosial yardım olur. Qeyd edək ki, birdəfəlik ödəniş və aylıq müavinətlər regionlardan asılı olaraq dəyişir.

Digər keçmiş SSRİ respublikalarındakı vəziyyətə baxaq. Belarusda 1-ci uşağa görə yaşayış minimumunun ən yüksək həddinin 5 misli, digər uşaqlara görə isə 7 misli qədər müavinət verilir. Bu da müvafiq olaraq 2000 və 3000 dollar təşkil edir. Bu ölkədə hətta övladlığa götürülən uşağa görə də dövlət müavinət nəzərdə tutub. Əkizlərə, üçəm və ya dördəmlərə görə əlavə olaraq hər uşaq üçün 368 rubl (335 manat) birdəfəlik kompensasiya ödənilir. Özü də ölkə üzrə orta aylıq əmək haqqına bağlı olduğu üçün bu məbləğlər hər il, əksər hallarda isə hər rüb artır. Hətta orta aylıq əmək haqqı azalsa belə, uşaq doğulandan əvvəlki yüksək məbləğə uyğun hesablanır.

Qazaxıstanda 1-ci, 2-ci və 3-cü uşağa görə 300 dollar, 4-cü uşaqdan başlayaraq 515 dollar birdəfəlik müavinət verilir. 3 və daha çox uçağı olan ailələrə bir sıra başqa güzəştlər verilir.

Ukraynada ailədəki 1-ci uşağa görə ödənilən məbləğ 1800 dollar, 2-ci uşağa görə 3750, 3-cü və ondan sonrakı uşaqlara görə 7140 dollar nəzərdə tutulur. Eyni zamanda 1-ci uşağa görə 12 ay, 2-ciyə görə 24 ay, digər uşaqlara görə isə dövlət 36 ay müddətində 715 dollar məbləğində müavinət ödəyir.

Ermənistanda əgər 1-ci və 2-ci uşaq üçün 135 dollar müavinət verilirsə, 3-cü uşağın doğulması ilə məbləğ 1200 dollara çatır. 18 yaşına çatana qədər hər bir uşaq dövlətdən ayda 100 dollar alır. Qeyd edək ki, bu ölkədə yaşayış minimumu 70 dollar təşkil edir.

Latviyada hər doğulan uşağa görə ailəyə 560 avro (1120 manat) müavinət verilir. Bu ölkədə uşaqların müdafiəsi üçün xüsusi dövlət orqanı fəaliyyət göstərir və onların sağlam və təhsilli böyüməsi üçün layihələr həyata keçirir.

Ümumiyyətlə, əksər ölkələrdə uşaq doğulmasına görə iri məbləğdə birdəfəlik ödəniş, təxminən yaşayış minimumu qədər də aylıq müavinət ödənilir. Bizdə də belə bir təcrübə olub. Sosialist respublika dövründə əhali artımına nail olmaq üçün çoxuşaqlı ailələrə əlavə güzəştlər verilirdi. Məsələn, onlara avtomobil bağışlanır, növbədənkənar pulsuz mənzil və ya torpaq sahəsi verilir, aylıq "uşaqpulu" ödənilir, "Qəhrəman ana"lar müxtəlif döş nişanları ilə təltif olunur, mükafatlandırılır, vaxtından qabaq təqaüdə çıxarılırdı.

SSRİ-nin dağılmasından sonra yaranmış ağır sosial-iqtisadi problemlər ucbatından bunlar ləğv olundu. Sonralar "südpulu" deyilən ödəmə bərpa olundu və hazırda bu 200 manat təşkil edir. Lakin bu birdəfəlik ödəmədir və uşağın 1 aylıq xəricini belə ödəmir.

Son illərdə azuşaqlı ailələrin sayı artıb, artıq ailələr 1, maksimum 2 uşağa üstünlük verirlər ki, burada əsas səbəb sosialdır- yəni maddi çatışmazlıqdır. 80-ci illərdə 1 uşaqlı ailələrin sayı 15 faiz ətrafında olurdusa, hazırda bu rəqəm azı 30 faizdir. 2 uşaqlı ailələrin çəkisi də azı 2 dəfə artıb.

Azərbaycanda 15-49 yaş arası hər 1000 qadına düşən doğum sayı da sürətlə azalmaqdadır. Belə ki, bu göstərici 1992-ci ildəki 111-dən 2017-ci ildə 63-ə düşüb. Son illərdə də azalma davam edir. Uşaq doğulmasına görə, birdəfəlik yardımın artırılması, aylıq müavinətlərin bərpası demoqrafik cəhətdən və milli genefondun qorunması nöqteyi-nəzərindən son dərəcə vacibdir. Bizdə bunu etmək üçün hər cür imkanlar var. Fikrimcə, uşaq doğulanda ödənilən birdəfəlik müavinətin məbləği ilkin mərhələdə hazırki 100 manatdan ən azı 1000 manata çatdırılmalı, hər uşağa görə ayda minimum 100 manat dövlət yardımı olunmalıdır. Ölkəmizin artan gəlirləri buna imkan verir. İnanıram ki, dövlətimiz yaxın vaxtda bunu reallaşdıracaq.

***Elçin Bayramlı***

# Azərbaycanla Ermənistan arasında nəqliyyat əlaqələrinin bərpası nələri vəd nədir?

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları Bəyanat uzun illər biri-biri ilə münaqişədə olan iki ölkə arasında nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Görüləcək işlərin əsas istiqamətlərinin siyahısı məlum olmasa da, prioritet qismində dəmir yolu və avtomobil yollarının olacağı bəllidir.



Azərbaycanla Ermənistan arasında iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, ilk növbədə iki ölkənin iqtisadi-ticari əlaqələrinin inkişaf etdirilməsi deməkdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) rəhbəri Vüsal Qasımlının sözlərinə görə, kommunikasiyaların açılması nəticəsində Ermənistanın ticarət dövriyyəsində Azərbaycanın payı ilk dövrdə 1 faiz ola bilər.

Digər tərəfdən, bu, Azərbaycanın özünün tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə quru yolla əlaqəsinin yaranması deməkdir. Hazırda Azərbaycanın digər regionları ilə Naxçıvan arasındakı birbaşa nəqliyyat əlaqəsi sadəcə, hava yolları vasitəsilə mümkündür ki, bu da digər nəqliyyat növləri ilə müqayisədə həm bahalıdır, həm də problemlidir. Bu baxımdan Naxçıvanla nəqliyyat dəhlizinin yaradılması bahalı nəqliyyat vasitəsinə daha ucuz alternativ olan avtomobil yolu və dəmir yolu xəttinin mövcud olacağı deməkdir.

Ümumilikdə isə regionda nəqliyyat-kommunikasiya sisteminin bərpası beynəlxalq nəqliyyat-logistika sistemində Azərbaycanın mövqeyinin güclənməsinə təkan verir. Söhbət ondan gedir ki, nəqliyyat və logistika sisteminin inkişafı, xarici və daxili daşınmalar üçün alternativlərin çox olması ölkənin iqtisadi inkişafında, idxal və ixrac əməliyyatlarının təhlükəsiz həyata keçirilməsində olduqca vacib amildir. Məsələyə dəmi ryolu prizmasından baxanda, bu, Azərbaycana regiondakı digər 5 ölkənin dəmir yolu xətləri sistemi ilə əlaqələndirilmək imkanı verəcək. İİTKM-in rəhbəri hesab edir ki, regionda ümumilikdə kommunikasiyaların açılması Azərbaycanın ixracını 1,2 milyard manat, qeyri-neft ümumi daxili məhsulunu 2 faiz, emal sənayesini 3 faiz və mədən sənayesini 2,7 faiz artıra bilər.

Ermənistana gəlincə isə kommunikasiyaların açılması bu ölkənin ticarət dövriyyəsində böyük paya malik olan Rusiya ilə əlaqə yaratmış olur. Eyni zamanda, hesab edilir ki, Azərbaycan və Türkiyənin dəmir yolu xətlərinin inteqrasiyasına Ermənistanın qoşulmaq imkanları rəsmi İrəvanın nə dərəcədə rasional siyasət yürütməsindən asılı olacaq. Belə ki, Ermənistan təkcə Türkiyə üzərindən Araliq və Qara dəniz limanlarına deyil, həm də Azərbaycan üzərindən Culfa vasitəsilə İranla əlaqələr qurmaq şanslarını da qiymətləndirməli olacaq. Çünki çətin coğrafi şəraitdə Ermənistan-İran dəmir yol layihəsinin tikintisinin iqtisadi cəhətdən əlverişli olmadığını nəzərə alanda, Cənubi Qafqazda kommunikasiyaların açılması bu ölkəyə İranın Bəndər-Abbas yük limanı vasitəsilə İran körfəzi və Oman körfəzinə və Hind okeanına çıxış, İstanbul-İslamabad qatar xəttinə qoşulma imkanı yaradır.

Azərbaycan və Ermənistan arasında iqtisadi və nəqliyyat əlaqələrinin bərpası region ölkələri-Rusiya, Türkiyə və İran üçün də böyük əhəmiyyətə malikdir. Belə ki, Rusiya bu vasitə ilə Avropaya daha bir quru yolla çıxış əldə edir. Bu ölkənin Avropa istiqamətində qonşuları ilə münasibətlərini nəzərə alanda, sözügedən amilin əhəmiyyəti daha da artır. Həmçinin Türkiyə ilə Orta Asiya arasındakı ticarət marşrutu dəyişə bilər. Belə ki,Türkiyə sərhədindən İran ərazisinə daxil olub Türkmənistan sərhədinədək gedən hər bir yük maşını 1800 kilometr qət etməli olur. Lakin bu yolun Azərbaycan və Ermənistan üzərindən keçəcəyi təqdirdə məsafə azaldığı kimi, tranzit haqqının da azalması mümkündür. Kommunikasiyaların açılması bundan əlavə Türkiyə-Ermənistan əlaqələrini də xeyli genişləndirə bilər. V. Qasımlının qənaətinə görə, Ermənistanın ticarət dövriyyəsində Türkiyənin payı 3 faizdən 13 faizə yüksələ bilər. Eyni zamanda, İran Naxçıvan üzərindən dəmir yolu ilə Ermənistana çıxış əldə edə biləcək. İki ölkənin quru sərhədlərinin olmasına baxmayaraq, bu sərhədi keçən dəmiryol xətti yoxdur.

Vaxtilə inşa edilmiş dəmir yolu Ermənistanın paytaxtı İrəvandan Naxçıvana daxil olduqdan sonra Naxçıvan-İran sərhədiboyu keçərək Ermənistan dəhlizi ilə Azərbaycana bağlanırdı. Müharibə səbəbindən Naxçıvan üzərindən İranla dəmiryol əlaqəsi kəsilib. Ermənistanın Türkiyə və Azərbaycanla da dəmiryol xətləri eyni səbəbdən işləmir. Ermənistanı dünyaya bağlaya biləcək yeganə dəmir yolu Gürcüstan ərazisindən Rusiyaya keçirdi. Ancaq bu dəmir yolunun keçdiyi bölgədə yerləşən Abxaziya "müstəqilliyini" elan etdikdən sonra Gürcüstan bu bölgə ilə nəqliyyat əlaqəsini kəsib və Ermənistanın Rusiyaya yolu bağlanıb.

Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciətində regiondakı bütün ölkələrin Naxçıvan dəhlizindən faydalanacağını bildirmişdi: "Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər... Bax, budur bizim təklifimiz. Biz istəyirik ki, bölgədə uzunmüddətli sülh olsun". Bu mənada sözügedən məsələ, həmçinin sülhə xidmət etmiş olacaq.

***Ceyhun Piriyev***

## Arsen Babayan: "Etiraz aksiyaları sərtləşdirilir"



"Vətənin Qurtuluşu Hərəkatı" yeni taktikalardan istifadə edəcəkdir. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Rodina Partiya Şurasının üzvü Arsen Babayan bu barədə "Hraparak" qəzetinin müxbirinə açıqlama verib.

Şura üzvü xüsusilə vurğulayıb ki, vətəni qurtarmaq adı ilə yaradılan bu hərəkat, Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb etməklə, yeni taktika ilə etiraz aksiyalarına davam edəcəkdir və yaxın gələcəkdə aksiya daha sərt olacaq.

"Bu gündən etibarən "Vətənin Qurtuluşu Hərəkatı"ndan vahid namizəd Vazgen Manukyanın ölkənin bölgələrinə səfərləri başlayacaq. İlk səfərin Şirak bölgəsində, xüsusən Gümrüdə, daha sonra Vanadzorda və digər bölgələrdə baş tutması planlaşdırılır. Vazgen Manukyan tək getməyəcək. Onu Hərəkata cəlb olunan qüvvələrin nümayəndələri müşayiət edəcək", deyə qəzet Babayanın fikirlərini yazıb.

# Paşinyan Putinin əl çantasıdır



***Putin normal siyasətçi kimi hər zaman ilk növbədə ölkəsinin maraqlarını ön planda tutur. Bu əlbəttə, qeyd etdiyimiz kimi normal təzahürlə yanaşı, həm də təbiidir və belə də olmalıdır. Baxmayaraq ki, bu, ermənilərin misalında kimlərinsə xoşuna gəlir, ya gəlmir. Yəni, Rusiya prezidentinin, loru dillə desək, vecinə də deyil ki, onun strategiyası Ermənistanın, yaxud bütövlükdə erməni cəmiyyətinin maraqları ilə üst-üstə düşür, yaxud düşmür.***

Baş nazirin "Mülki Müqavilə" partiyasının spikeri Vahan Aleksanyan hakim "Mənim addımım" partiyasından ayrılan millət vəkili Sofya Hovsepyanı Nikolun əl çantası ilə müqayisə edirdisə, oxşar paralellər aparmaqla, Paşinyanın özünü də eyni şəkildə Putinin əl çantası adlandıra bilərik. Onun bu günlərdə Vladimir Vladimiroviçin əlindəki yalnız bir dəftərxana ləvazimatı funksiyasını yerinə yetirdiyi açıq şəkildə müşahidə edilir. Paşinyan Putinin diplomatik müstəvidə danışıqlar apardığı bütün razılaşmaları səssizcə imzalayır. Təbii ki, buna məcburdur. Özü də bir məğlub ölkənin, rəzil baş naziri kimi. Bu razılaşmaların və danışıqların Ermənistanın maraqları ilə üst-üstə düşməməsi də göz qabağındadır. Üst-üstə düşəcəyinə biçarə Nikolun ümidi belə yoxdur. Baxmayaraq ki, o hər dəfə daxili auditoriyaya ölkəsinin maraqları çərçivəsində çıxış edəcəyini vəd edir. Amma, sual oluna bilər, hansı haqq və hüquqla? Şübhəsiz ki, belə bir haqq erməni baş nazirdə, ümumiyyətlə Ermənistan tərəfində yoxdur. Bunu erməni cəmiyyəti də zamanında anlasaydı özü-özünü aldatmaz, baş nazirini də əl çantasına çevirməzdi.

Ermənistanın yaratdığı qondarma mif, erməni döyüşçülərinin guya misilsiz qəhrəmanlıq obrazı, yaxud guya məğlubedilməz Ermənistan mifi dağıldı. Bu mifi Azərbaycan Ordusu öz Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi ilə dağıtdı. Planetin sakinləri çoxdandır yalandan formalaşdırılan mifin qondarma olduğunu, bir erməni xəyalı olduğunu 44 günlük müharibə dönəmində yaxşıca başa düşdü.

Xankəndi yaxınlığında Azərbaycanın qarşısıalınmaz hücumunu tələsik dayandırmaq istəyində olan Rusiya prezidenti erməni separatçıların qanının su kimi axmasının qarşısını aldı. Bəli, üçtərəfli razılaşma ilə Ermənistan on minlərlə əsgər və başqa itkilərdən xilas oldu. Bu, rusların, bilavasitə Rusiya prezidentinin bir növ ermənilərə hədiyyəsi də hesab oluna bilər. Amma, razılaşmanı Putin həm də öz ölkəsinin maraqlarını nəzərə alaraq reallaşdırmağa çalışdı. Yenə də rabitənin, əlaqələrin blokdan çıxarılması şərtlərini müzakirə edən Putin oldu, çünki onun üçün bölgədəki bütün maddi-texniki təchizat üzərində nəzarət yaratmaq çox vacib hesab olunur. Və nəhayət, hərbi əsirlərin mübadiləsi barədə danışıqlar aparan da Putindir, çünki gərginliyin dərəcəsini azaltmalı və müharibə edən tərəflər arasında etibar mühiti yaratmaq çox vacib hesab olunur. Yeri gəlmişkən, Azərbaycan tərəfi öz mövqeyini, qalib statusunu diplomatik müstəvidə də qoruyur və heç də ilkin razılamadan boyun qaçırmır, Ermənistandan fərqli olaraq. Amma, erməni cəmiyyəti öz hakimiyyətindən razılaşmanı yeniləmək, yaxud, dəyişiklik etmək arzusundadır və baş nazir də hər çıxışında daxili auditoriyaya sakitləşdirici ümidlər verməyə can atır. Özü də acınacaqlı məğlubiyyətlərini unutmuş kimi. Buna baxmayaraq, Rusiya prezidenti ilə görüşərkən Nikol Paşinyan məğlub durumunu bir daha yadına salır və yenə də bir növ, öz qınına girir.

İşğalçı ölkənin baş naziri ölkəsindən kənarda burnunun altından sürüşüb keçəm hər sənə, hər şeyə imza atır. Təbii ki, buna məcbur olduğunu anlayaraq edir. Əks halda, ən azından Vovaeviç Rusiya prezidenti qarşısında mızıldana bilər, öz fikirlərini də ifadə edərdi. Axı bu həmin o Nikoldur ki, müharibədən əvvəl dilemma ilə, ən azından şərtlərlə çıxış edirdi. Cənab Prezidentin qeyd etdiyi kimi, nə oldu Paşinyana? Əlbəttə ki, məğlub oldu, uduzdu. Təkcə müharibəni yox, olan-olmazını uduzdu. Ölkə daxilində söz demək imkanını da itirdi. Hətta bir zaman küçədə velosipedlə işə getdiyini bütün dünyaya nümayiş etdirib ölkəsinin azad ölkə, özünün də çox əmin olduğunu göstərən Nikol indi nəinki küçəyə çıxa bilmir, kilsəyə belə gedəndə onun əlini sıxmadan oradan qovurlar. Biçarə erməni baş nazir Moskvaya diplomatik səfərə belə getmək üçün yolunu kəsib getməsinin qarşısını almaq istəyən etirazçılardan qaçaraq səfərə gedir. Bəs bu vəziyyətinin, bu halının fərqində olan birisi Moskvada, özü də Putinin önündə sərbəst , yaxud iddialı ola bilərmi? Əlbəttə ki, yox. İndi Putin Nikolu bir əl çantası kimi hara qoysa, orada da durmalıdır. Yəni, məğlub, hər şeyini itimiş Paşinyanın bundan sonra Putinin əl çantası olmaqdan başqa bir yolu qalmır.

***İnam Hacıyev***

# "Amnesty İnternasional" hər zaman bizə qərəzli münasibəti ilə seçilib"

***"Amnesty İnternasional" beynəlxalq amnistiya təşkilatı hər zaman Azərbaycana, Türkiyəyə, türk dünyasına özünün qərəzli münasibəti ilə seçilib. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçinin sözlərinə görə, ilk dəfə deyil ki, "Amnesty İnternasional" bu cür qeyri-obyektiv, ermənilərin əlinə oynayan hesabatla çıxış eliyir.***



"Biz ötən illər ərzində də dəfələrlə şahidi olmuşuq ki, bu təşkilat Azərbaycanda xırda bir məsələni şişirdib dağ başına qaldırıb və ondan istifadə eliyərək Azərbaycanı çox ciddi şəkildə ittiham eliyib, amma Ermənistanda göz önündə baş verən bir çox hüquq pozuntularına heç reaksiya belə verməyib. Hətta, Türkiyə ilə bağlı da eyni və daha geniş həcmli yanaşmalar sərgiləyib. Yəni, Türkiyədə də adi bir hadisəni çox şişirdərək, bütün dünyanı səfərbər edib və Türkiyənin üzərinə qaldırıb, eləcə də Türkiyə dövlətini, türk xalqını gözdən salan çağırışlar edib. Ona görə də, indi, baş verən hadisələrə, Qarabağ savaşı zamanı Ermənistanın dinc əhaliyə atəş açması, şəhərlərimizi, kəndlərimizi xaraba qoyması, yüzdən çox mülki şəxsimizi öldürməsi faktı ümumiləşdirilmiş rəqəmlər içərisində ört-basdır edilməyə çalışılır. Yəni, rəqəmləri bir yerə toplayaraq, müharibə nəticəsində bu qədər mülki şəxs öldürülmüşdür, deyib, ermənilərlə bizi tərəzinin bir gözünə qoyurlar.

Eyni zamanda da bunlar Azərbaycanın azadlıq müharibəsi apardığını göz ardı edirlər. Yəni, Azərbaycan dövləti, Azərbaycan Ordusu öz ərazilərindən kənarda heç bir əməliyyat aparmayıb, Ermənistan ərazisinə bir güllə belə atmayıb, Ermənistan ərazisində hərhansı mülki şəxs və ya tikili zərər görməyib. Bunlar vurğulanmalı idi, lakin beynəlxalq amnistiya təşkilatı bunları görməzdən gəlir. Nə olubsa Azərbaycan ərazisində olub. Əslində, onlar bunu xüsusi vurğulamalı idilər. Yəni, dağıdılan binalar da, öldürülən mülki şəxslər də, bütün bunlar Azərbaycan ərazisində öldürülüblər.

Hətta, müharibə nəticəsində öldürülmüş ermənilər belə, Azərbaycanın günahı ucundan dünyadan köçməyiblər. Onların da öldürülməsinin səbəbi, günahkarı işğalçı Ermənistandır. İşğalçı Ermənistanın ordusu Azərbaycan torpaqlarında olmasaydı, o ermənilər də ölməyəcəkdi. Bax, beynəlxalq amnistiya təşkilatı bu məqamlara diqqət yetirə bilərdi. Lakin, göründüyü kimi, onlar bu məqamları göz ardı ediblər, hərzamankı kimi ikili standart, qərəzli yanaşma və Azərbaycanı gözdən salma siyasəti yürüdüblər. Hər halda biz, indi elə bir zamanda yaşayırıq ki, yüz belə təşkilat minlərlə yalan uydursa belə, gerçəklər dəyişən deyil. Gerçək də ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxladı, müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan Cənab İlham Əliyevin başçılığı altında, Azərbaycan əsgərinin canı və qanı bahasına o torpaqları işğaldan azad etdi. Bax, bu gerçəyi artıq heç kim dəyişə bilməyəcək", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Rusiyalı politoloq Ermənistana 2 variant təklif edib

***"Böyük Ermənistan", "dənizdən dənizə", Los-Ancelesdən Beyrutadək Ermənistan olmayacaq". "İki sahil"in məlumatına görə, bunu Rusiyanın milli təhlükəsizlik məsələləri üzrə hərbi-siyasi mütəxəssisi, amerikaşünas-politoloq Dmitri Yevstafyev feysbuk səhifəsində yazıb. "Paşinyan yalnız simptomdur. Bu simptom millətin daxilindən yanıb qurtarıb. O, böyük ola bilmir və böyüklüyün yükünü çəkmək istəmir", - o qeyd edib.***



D.Yevstafyev bildirib ki, Ermənistanın və bu ölkənin xalqının gələcəkdə mövcud olması üçün yaxın 20 il üçün iki yolu var: "Hər iki yolun bəyənilməyəcəyindən qorxuram. Birinci variant "Böyük Rusiya"nın Kalininqrad kimi etnoqrafik əyaləti olan kiçik Ermənistan. İkinci variant isə çox kiçik Ermənistanı Osmanlı imperiyasının Bakı vilayətinin tərkibində etnoqrafik mühafazdır".

Politoloq Rusiyanın indiki şərtlərini Ermənistan və erməni xalqı üçün ən uğurlu şərait sayıb: "Təkcə Paşinyan deyil, erməni xalqı bu seçimin əhəmiyyətini başa düşməsə, Rusiya və ictimaiyyəti, o cümlədən dəhşətli dərəcədə xəstə olan Rusiyadakı erməni icması heç nə edə bilməyəcək. Yeni dünya cox qəddardır. O, xəyalları silib süpürür. Belə dünyada yaşamağı öyrənmək lazımdır".

# "Ermənilər itin qovulduğu kimi Qarabağdan qovula bilərlər"



**Müsahibimiz politoloq Qabil Hüseynlidir**

**- Qabil bəy, Ermənistanın baş nazirinin köməkçisi əsgər anaları ilə görüşündə bəyan edib ki, 30 ildir ki, "Ermənistan xalqı bilirdi ki, Qarabağ Azərbaycan torpağıdır". Bunu Ermənistan hakimiyyəti tərəfindən həqiqətin etirafı kimi qiymətləndirmək olar?**

- Ermənistan baş nazirinin köməkçisinin Qarabağ Azərbaycan torpağıdır deməsi həqiqətin etirafıdır. Ümumiyyətlə, ermənilərin hamısı çox gözəl başa düşürlər ki, nəyin ki, Dağlıq Qarabağ hətta, ermənilərin yaşadıqları ərazilər belə onların deyil. Onlar bu bölgəyə gəlmədilər. Yalnız bir necə başı xarab olmuş, xəstə təxəyyüllü, uydurma erməni tarixinin təsiri altında nələrsə uydururlar. Amma, onlar reallıqda çox yaxşı bilirlər ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Onu da bilirlər ki, Şuşanın, Xankəndinin bünövrəsini Qarabağ xanı Pənahəli xan qoyubdur və onlar özlərinin İran ərazisindən gəldiklərini də çox gözəl bilirlər. Yəni Dağlıq Qarabağa gələn ermənilərin böyük əksəriyyəti İrandan gəliblər.

**- Amma elə erməni terrorçuları var ki, hələ də revanş hissi ilə yaşayırlar.**

- Düzdür, elə başdan xarab ermənilər var. Amma azçox ağlı olan, son reallıqları başa düşən, revanşist hisslərlə yaşamayan, milliətçilik azarına tutulmamış, xəstə təxəyyülün əsri olan ermənilər başa düşünürlər ki, bura Azərbaycan torpağıdır və Şuşa tamamilə Qarabağ xanlığının mərkəzi şəhəri idi. Bəli, ermənilər ciddi cəza aldıqda reallıqları etiraf edirlər. Ümumiyyətlə, onlar səmimi xalq, toplum deyil, içərilərində dərin kök salmış radikal millətçilik azarı var, müsəlmanları heç sevmirlər, türklərə nifrət edilər və bu nifrət böyükdən kiçiyə keçir. Yəni ermənilər öz uşaqlarını körpə vaxtından bu ruhda tərbiyə edirlər. Mən inanmıram ki, dünyada ikinci bu cür mentalitetə malik olan toplum olsun və bu toplumun bu qədər mənfi xüsusiyyətləri olsun. Ona görə də, "biz bi yerdə yaşaya bilərik və ya bilmərik" sualına cavab verəndə bəli, bizim nəzarətimiz altında yaşayacaqlarsa "hə", əks halda itin qovulduğu kimi qovulacaqlar.

**- Yenidən xarici təsirlər olarsa, ermənilər arasında növbəti separatizm baş qaldıra bilərmi?**

- Bəli bu mümkündür. Xaricdən kimlərsə onlara təsir edə, silah-sursatla təchiz edərsə, yenidən separatizm baş qaldıra bilər. 1988-ci ildə onlar kim idi, qışqırdıb, Azərbaycanın üzərinə göndərən? Təkcə Zori Balayanmı, Kaputipyanmı, yox, onları həmçinin qışqırdan Moskva, Qarboçov oldu. Stariyan deyilən bir "idiyot" var idi, SSRİ Plan Komitəsi sədrinin 1-ci müavini idi, erməniləri bunlar qaldırdılar. Ancaq baş qaldırsalar bu dəfə Azərbaycanın dəmir yumruğu, Azərbaycan ordusunun sərt cəza tədbirləri onları tamamilə məhv edəcək. Hətta Ermənistan öz mövcudluğunu itirə bilər. Vətən müharibəsi göstərdi ki, millətimiz çox qoçaq millətdir və pələng kimi vuruşmağı bacarır. Millətimizə ictimai yaddaş aşılamalıyıq. Televiziyalar, qəzetlər bu tarixi həqiqətləri dönə-dönə əhalinin hər bir üzvünün yaddaşına çatdırmalıdır. Yəni vətənpərvərlik mövzusunda, xalqın tarixinə aid yazılar, verilişlər hazırlayıb, verməlidirlər. Ermənilərin bu bölgəyə köçüb necə gəldiklərinin tarixi faktlar əsasında ziyalıları köməyi ilə bir-bir xalqın yaddaşına həkk edilməlidir.

***Gülyana***

# Yasa batmış yapalaq antimilli ünsürlər...



Bunlar barmaqla sayılacaq qədər az, lakin içləri kin və nifrətlə dolu iddialı adamlardır. Xalqın ağır günlərində bayram etmək, bayramlarında isə yasa batmaq onların özəl xislətləridir. Yəqin dərhal anlaşıldı ki, söhbət Azərbaycanda doğulub onun çörəyini yeyən, suyunu içən və tufeyli həyatı keçirən bir qrup şəkkak müxalifətçidən gedir. Əslində bunlar müxalifətçi deyillər, adlarını müxalifətçi qoymuş bir dəstə pulla satın alınan satqın zümrədir.

Heç kəsin yadından çıxmayıb ki, müharibə gedən 44 gün ərzində onlar marığa yatıb Azərbaycanın məğlub olacağını gözləyir və arzulayırdılar. Ancaq gözlədiklərinin əksini görəndə sarsılıb özlərini itirdilər və cınqırları belə çıxmadı. Yalnız iki ay keçəndən sonra birtəhər özlərinə gəlib müzəffər ordumuzun, xalqımızın və dövlətimizin rəhbərinin birgə qələbəsini təftiş etməyə başladılar. Köhnə cır səslər yenidən eşidildi. Əli Kərimli, Cəmil Həsənli, Qənimət Zahid, Sevinc Osmanqızı, Orduxan Teymurxan və bir neçə bu tipli adamlar işğalçı Ermənistan üzərində böyük qələbəmizi kiçiltməyə girişdilər.

Dünyanın superdövlətləri Azərbaycanın yeni müharibə aparmaq taktikasını təqdir edib öz ordularında bunun öyrənilməsi məsələsini qoyanda bizim yapalaq müxalifətimiz böhtan və çamur atmaqla məşğul olurlar. Elə qərəzlə ağ yalan danışırlar ki, düşünürsən soyadlarının sonunda yan çatışmır.

Əli Kərimli qısqanclıqla və həsədlə söyləyir ki, biz 1992-ci ildə Xankəndinin 9 kilometrliyinə çatmışdıq. Bəs sonra nə oldu? Qarabağı ermənilərə verib niyə geri çəkildiniz? İstər Əli Kərimli, istər Pənah Hüseyn, istərsə də İsa Qəmbər və Arif Hacılı bu suallara saysız-hesabsız cavablar verə bilərlər, ancaq əsl həqiqəti gizlətməyə çalışırlar. O zaman bu adamlar dövlətin yüksək postlarını tutublar, minlərlə qeyrətli oğullarımızın şəhid olmasında, 30 mindən artıq döyüşçümüzün isə yaralanıb şikəst olmasında, üstəgəl Qarabağın erməni tapdağına düşməsində günahları var. Azərbaycanın o müharibədən məğlub surətdə çıxmasının birbaşa günahkarları olan bu şəxslərin danışmağa gərək dilləri olmasın. O vaxt xalqın birliyini təmin edə bilməyən fərsiz AXC-Müsavat rəhbərləri ordu yaratmağı, onu müasir silahlarla, zirehli texnika və artilleriya ilə təmin etməyi xəyallarına belə gətirmirdilər. Birinci Qarabağ müharibəsinin şəhidlərinə, qazilərinə və iştirakçılarına yalnız dildə qayğı göstərən AXC-Müsavat cütlüyünün başbilənlərinin ağızlarına çullu dovşan sığışmır, guya indi bu qəbildən olanların haqlarını tələb edirlər. Bu isə riyakarlıqdan başqa heç nə deyil. Əli Kərimli və digər yapalağa bənzərlər unudublar ki, I Qarabağ müharibəsinin bir çox döyüşçüləri erməni işğalçılarına qarşı vuruşduqlarını sübut edə bilmirdilər, veteran sənədi almaq üçün onlardan rüşvət alınır və ya fərari kimi həbs edilirdilər. Özündənbəylərin batalyonları kənd və rayonları müqavimət belə göstərmədən müdafiəsiz qoyub geri çəkilirdilər. İndi Ermənistan silahlı qüvvələrini darmadağın edərək Qarabağı azad edənlərə qarşı çıxmaq nə deməkdir? Bu, düşmən mövqeyi deyil, bəs nədir? Təəssüf ki, Qənimət Zahidin suallarına cavab verən Əli Kərimli bildirir ki, o, tutduğu yoldan dönən deyil. O, hələ də başa düşmək istəmir ki, beş-on nəfərlə on milyona qarşı çıxmaq mənasız iş və ağılsızlıqdır. Bunu bilirsə və şüurlu surətdə düşmən dəyirmanına su tökürsə, onda heç olmasa xalqın adından danışmasın. Oynamaq yaxşı olduğu kimi, utanmaq da yaxşı şeydir.

***Vəli İlyasov***

# Dəmir yumruq: daim yüksəkdədir və hər an enməyə hazırdır!



***Şuşamıza Ali Baş Komandanımız tərəfindən gerçəkləşdirilən tarixi səfər artıq özü-özlüyündə bir çoxlarını narahat edən suallara da yavaş-yavaş aydınlıq gətirməkdədir və bu aydınlıq elə də uzaqda deyil, çox yaxındadır, hətta Şuşamızın Xankəndinə yaxınlığı qədər məsafədə...***

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qədim mədəniyyət paytaxtımız, azad Şuşa şəhərinə tarixi (!!!) səfəri və həmin səfəri çərçivəsində səsləndirdiyi fikir və bəyanatları əslində bir neçə gün əvvəlki bəyanatının - separatçı quldurlara və başlarına dəymiş dəmir yumruqdan sonra hələ də işğalçılıq düşüncələrində qalmağa cəhd edən Ermənistan rəhbərliyinə yönəlmiş son xəbərdarlığının məntiqi nümayişi idi. Bu yumruq daim yüksəkdədir və hər an düşmənin başına enməyə hazırdır.

Məsələ ondadır ki, dövlət başçımızın tarixi Şuşa səfəri digər tərəfdən düşmənlərimizi ciddi şəkildə narahat etməyə başlayıb. Hətta belə desək, ənənəvi erməni həyasızlığı bu məqamda da özünü çox gözlətməyib. Məsələn, ermənilər sosial şəbəkələrdəki seqmentlərində özlərinin xarici işlər nazirliyindən dərhal tələb ediblər ki, sözügedən səfərə qarşı etirazlarını bildirsinlər, sən demə bunların "şuşiləri" böyük "dərd" içindəymiş, "sızlayırmış". Təbii ki, erməni həyasızlığı ilə yanaşı ənənəvi "əzabkeşliklərini", "məzlumluqlarını" da artistizm nümayişi kimi sıralamaya əlavə edərsək, bu zaman qaraçı geni daşıyan qaraçı tayfasının real formulası özünü tam şəkildə isbatlamış olar.

**Düşmənin beli qırılıb, cürət edib bir də başını qaldırarsa yenə qırılacaq!**

Karma deyilən ifadə var, yəni digər şəkildə ifadə etsək, bumeranq zərbəsi. 30 il (!!!) azərbaycanlılar Şuşa həsrəti ilə alpışıb-yandılar, bu həsrətlə minlərlə insan haqq dünyasına narahatlıqla köçdü, təkcə Şuşa həsrəti ilə və digər işğal altında qalmış rayon və şəhərlərimizi hələ demirəm. Məhz həmin qaraçı tayfasının nümayəndələridirlər ki, indi də Azərbaycanın zərbəsindən od tutub-yanırlar. Cızdaqları çıxana qədər yanıb-kül olurlar. Qoy olsunlar, zərəri yoxdur, karmanın ya da bumeranqın, əsl mənada isə İlahi ədalətin zərbəsini dadsınlar. Bu zərbənin digər adı isə Azərbaycan əsgərinə, xalqına xas olan, aid olan dəmir yumruqdur ki, növbəti dəfə Şuşadan düşmənin başına endi!

Təkcə bir bəyanatın gücünə və hər an real şəkildə həyata keçməsi mümkünlüyünə diqqət yetirək. Ali Baş Komandan Şuşada vurğulayıb: "Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq, lazım olsa bir də qıraraq... Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin (erməni işğalçılarının və onların əvvəlki və indiki rəhbərliklərinin - R.R.) iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq!"

Yaxud: "Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unurmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik!"

Gorbagor olan və cəhənnəmə gedən status: ermənilər və havadarları isə öz nağıllarına inanmaqda davam etsinlər...

Ancaq daha bir məsələyə toxunmağın tam yeridir. Daha dəqiq desək, bu gün şəhidlərimizin, qəhrəman qazilərimizin şücaətləri, hədsiz qəhrəmanlıqları sayəsində əldə eidlmiş zəfər və qələbəmizə xor baxanlara, sapı özümüzdən olan baltalaradır sözüm. Ali Baş Komandanımızın sözü ilə əməli birmənalı olaraq gerçəklikdir və bu gerçəklik istəsələr də, istəməsələr də onların - sapı özümüzdən olan baltaların da başlarına dəmir yumruq kimi dəyəcək və dəyir də. Bu baxımdan, ölkə başçımızın Şuşa səfəri əsnasında səsləndirdiyi digər bəyanatına diqqət yetirək: "Onlar qondarma "DQR"in "parlamentini" Şuşa şəhərinə köçürəcəkdilər. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti dəfə cəhd edilməli idi. Artıq inşaata da başlamışdılar. Bax, bu binanı onlar qondarma "DQR"in "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları (işğalçıları - R.R.) buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Perlament" də gorbagor oldu, status da görbagor oldu, cəhənnəmə getı. Qarabağ Azərbaycandır!"

**Qarabağ Azərbaycandır! - bu şüarın kimlərə aidiyyatı yoxdur?**

Bəli, Qarabağ Azərbaycandır! Azərbaycanın dövlətçiliyinə sadiq olan hər bir vətəndaş üçün, Qarabağ Azərbaycandır! Onun maraqlarını canı bahasına qorumağa, şəhid olmağa hazır olanlar üçün, Qarabağ Azərbaycandır! Düşmənin hər mənfur cəhdinə qarşı sinəsini önə verməyi, mübarizə aparmağı bacaranlar üçün! Qələbəmizə xor baxanlara isə bunların heç bir aidiyyatı yoxdur. Çünki ya erməni olsun, ya da erməniyə canfəşanlıq edən hər hansı bir xarici qüvvə olsun - beləri onlara nabilik, nökərçilik, kölelik edirlər və belələrinə nə Qarabağın azad olunub-olunmaması qətiyyən maraqlı deyil, nə də onların bu ətrafda nələrsə çərənləmələri xalqda maraq doğurmur.

Nəticədə isə reallıqdan danışaq: qədim şəhərimiz - Xankəndimizi yüksəklərdən öz ağuşuna almış Şuşamıza Ali Baş Komandanımız tərəfindən gerçəkləşdirilən tarixi səfər artıq özü-özlüyündə bir çoxlarını narahat edən suallara da yavaş-yavaş aydınlıq gətirməkdədir və bu aydınlıq elə də uzaqda deyil, çox yaxındadır, hətta Şuşamızın Xankəndinə yaxınlığı qədər məsafədə...

***Rövşən RƏSULOV***

# Ermənistanda niyə "it yiyəsini" tanımır?




***Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri ilə düşmənin kapitulyasiyası ilə başa çatdı. İkinci Qarabağ müharibəsinin Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatması nəticəsində hazırda işğalçı Ermənistan tarixinin ən ağır, həm də rüsvayçı günlərini yaşayır. Belə ki, indi işğalçı ölkədə siyasi qarşıdurmalar daha geniş vüsət alıb, iqtisadi vəziyyət daha da pisləşib. Ölkənin rəhbəri hansısa bir tədbir görməyi belə düşünmür. Etiraz aksiyaları isə təqiblərə baxmayaraq, səngimək bilmir.***

Son günlər "Uşaqlarımız üçün təhlükəsizlik zəmanəti tələb edirik" deyən çağırışçı əsgərlərin valideynlərinin bu aksiyalara qoşulması vəziyyəti daha da kəskinləşdirib. Bir erməni saytının yazdığına görə, hazırda Ermənistan müharibədəki məğlubiyyət fonunda cəhənnəmə çevrilib. Erməni diasporu da yaranmış vəziyyətdən çıxış yolunu Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasında, həmçinin onun siyasi səhnədən qovulmasında görür. Bəzi məlumatlara görə, Nikol Paşinyanın istefasını tələb edən sənəd üçün imzatoplama kampaniyasına da başlanılıb. Çünki bəzi qüvvələr Ermənistanın bu hala düşməsinin baiskarı kimi Nikol Paşinyanı görürlər. Amma fakt budur ki, bu ölkə müxalifəti nə qədər cəhd göstərsə də, Nikol Paşinyan istefa etmir. Bəzi siyasətçilər isə Nikol Paşinyanın ailəsinin, daha doğrusu, arvadı Anna Akopyanın və qızlarının -Şuşan və Marianın Rusiya vətəndaşlığı almaq məqsədi ilə Moskvaya qaçdıqlarını əsas gətirərək, artıq "buz"un ərimək ərəfəsində olduğunu bildirirlər.

Yeri gəlmişkən qeyd edək ki, Ermənistanın ağır vəziyyətə düşməsində daha çox keçmiş hakimiyyəti günahlandıranlar da kifayət qədərdir. Onlardan biri də elə Nikol Paşinyandır. O, hətta beynəlxalq ictimaiyyətin bu gün ölkəsini işğalçı kimi tanımasını Koçaryan-Sarkisyan cütlüyünün "məhsulu" kimi dəyərləndirib.

Hazırda Ermənistan daxilində baş verənləri analiz edəndə belə qənaətə gəlmək olur, bu ölkədəki siyasi hakimiyyətin və müxalifətin hələ də normal düşünmək qabiliyyətləri yoxdur.

...Şübhəsiz, Ermənistanda xaosu körükləndirən amillərdən biri də yanvarın 11-də Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada keçirilən üçtərəfli görüşdən əliboş qayıtması, daha doğrusu, arzuladığı status və 10 noyabrdan, yəni atəşkəs elan olunandan sonra ələ keçirilmiş erməni diversantlarının-terrorçularının məsələlərinə heç bir reaksiya verilməməsi ilə bağlıdır. Doğrudur, Nikol Paşinyan Ermənistanın daxili auditoriyasını sakitləşdirmək məqsədi ilə görüşdən sonra keçirilən mətbuat konfransında bu barədə sərsəmlədi. Amma cəhdlərinə baxmayaraq, bir nəticə əldə edə bilmədi.





Göründüyü kimi, Ermənistanda artıq iki aydır demək olar ki, hakimiyyət yoxdur. Bu səbəbdən ölkədə xaos və anarxiya hökm sürür.



Siyasətçilərin fikrincə, bu vəziyyət Azərbaycanın, onun lideri İlham Əliyevin vəhşi düşmən üzərində 44 gün ərzində əldə etdiyi inamlı qələbənin, onlara verdiyi tarixi dərsin Ermənistan cəmiyyətindəki etirafı, başqa sözlə desək, əks-sədasıdır.

Siyasətçilərin fikrincə, II Qarabağ müharibəsində Azərbaycanın dəmir yumruğunun sarsıdıcı zərbəsini almış Ermənistan üçün bu il daha ağır keçəcək. Ağır şəraitdən çıxmağın tək yolu isə ötən il noyabrın 10-da və bu il yanvarın 11-də imzalanmış bəyanatlara riayət etməkdən keçir. Məhz bu sənədlər böhran məngənəsində boğulan Ermənistana məlhəm ola bilər. Əks halda bu ölkədə, əgər belə demək mümkünsə, uzun müddət it yiyəsini tanımayacaq.

***Qvami Məhəbbətoğlu***

# Suren Parsyan: "Yoxsulluq səviyyəsinin və dövlət borcunun artması gözlənilir"



***İqtisadiyyatdakı tənəzzül 12 ildə görünməmiş bir göstəriciyə sahib idi və səlahiyyətlilərin 8%-dən danışmasına baxmayaraq, real tənəzzül daha böyükdür və kiçik və orta sahibkarlıq sahəsində ümumiyyətlə, 20-30%-dir. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə "Daşnaktsutyun" partiyasının iqtisadi araşdırmalar bürosunun rəhbəri, iqtisadçı Suren Parsyan 15 yanvarda jurnalistlərlə görüşündə söyləyib. Onun sözlərinə görə, dövlət dəstəyi proqramlarının həyata keçirildiyi mədən sənayesi və bank sektoru bir şəkildə ayaqda qalmağı bacarıb.***

"2019-cu ildə yoxsulluq səviyyəsi 3% artdı və uyğun bir siyasət olmadığı üçün bu tendensiya davam edəcək. Qidalara gəlincə, 2021-ci ildə qiymətlər artacaq, xüsusən un, tərəvəz, meyvə, yağ, toyuq qiymətləri artacaq. Səbəblərdən biri də 700-dən çox mal idxalında gömrük rüsumlarının 1-4% artırılmasıdır. Digər səbəb dramın devalvasiyası və dövlətdən proqnoz məlumatlarının olmamasıdır. İkincisi, bu işin özü bir az təhlükəsizlik yaradaraq xərclərin 1 dollar üçün 550 dram nisbətində hesablamaq məcburiyyətində qalmasına gətirib çıxarır, halbuki bir dollar indi 525 dramdır. Darma dərəcəsi 7-8% -ə düşərsə, hesablamalar15% -lik bir düşmə əsasında aparılır. Qiymətlərin artmasına müəssisələr üçün qaz tariflərinin artması da səbəb olub. Elektrik enerjisindəki qiymət artımı əlavə olaraq bahalaşmaya səbəb olacaq.

Qarabağda kənd təsərrüfatı torpaqlarının itirilməsi, həmçinin ümumi tələbatın 5% -ni təmin edən hidroelektrik stansiyalar şəklində ucuz bir elektrik mənbəyinin itirilməsi ilə qida problemləri daha da ağırlaşacaqdır", deyə o izah edib. Mütəxəssis, ölkədəki çətin maliyyə vəziyyətinin, pandemiyanın başlanğıcında, Ermənistan hakimiyyətinin uğursuzluğu ilə izah edib.

"Milli borc 7,5 milyard dollara qədər artıb. Ermənistan vaxtilə banklara su elektrik stansiyalarının inşası layihələri də daxil olmaqla Qarabağdakı proqramların maliyyələşdirilməsi üçün 1 milyard dollar məbləğində zəmanət verib. Banklar bu pulu qaytara bilmirsə, dövlət öz öhdəliklərini yerinə yetirməli olacaq, yəni borc bu məbləğdə artacaqdır. Böhran və vaxtı keçmiş kreditlərin böyüməsi fonunda bəzi təşkilatlar vəziyyətdən istifadə edib varlanmağa çalışacaq, uzun müddətə satmaq üçün ipoteka əmlakını ucuz qiymətə alacaqlar. Söhbət bahalı daşınmaz əmlakdan gedir. Yəni kapitalın yenidən bölüşdürülməsi olacaq. Dövlət hələ də buna passiv baxır, üstəlik böyük kapital üçün mənfəət vergisini azaldır.

Ermənistan mütərəqqi pul və maliyyə siyasətinin aparılması sisteminə keçməlidir. Zənginlər daha çox pul ödəməlidirlər. Vergi gəlirləri banklar, depozitlər, mədənçilik, enerji yolu ilə təmin edilə bilər. Ümumiyyətlə, iqtisadi vəziyyət, ilk növbədə, siyasi sabitlikdən asılıdır, bu səbəbdən erkən seçkilərlə bağlı açıqlamalar da sərmayələrin dondurulmasına səbəb ola bilər", deyə Suren Parsyan fikirlərini yekunlaşdırıb.

***İnam Hacıyev***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

16 yanvar

# Azərbaycanda ən yaşlı pensiyaçının 130 yaşı var



***Bu gün Azərbaycanda yaşı 100-dən çox olan pensiyaçıların sayı 400 nəfərdir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi yanında Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb. Qeyd olunub ki, onlardan 27 nəfəri kişi, 373 nəfəri isə qadındır.***

Ən yaşlı kişi pensiyaçı İbrahimov Hilal İsa oğludur. O, 1915-ci il təvəllüdlüdür. Bakı şəhərində yaşayır. Ən yaşlı qadın pensiyaçı isə 1890-cı il təvəllüdlü Əzizova Tamam Əli qızıdır. O, Lənkəran rayonunda yaşayır.

# Türkiyə kubokunda 1/4 finalın püşkü atıldı




**Futbol üzrə Türkiyə kubokunda 1/4 final və yarımfinal mərhələlərinin püşkü atılıb. Qol.az xəbər verir ki, "Qalatasaray" "Alanyaspor"la, "Sivasspor" "Antalyaspor"la üz-üzə gələcək. "Beşiktaş" "Konyaspor"un qonağı olacaqsa, "Fənərbaxça" "Başakşəhər"i sınağa çəkəcək.**

**Qeyd edək ki, 1/4 final mərhələsinin oyunları fevralın 9-11-də, yarımfinal matçları isə martın 16-18-də keçiriləcək.**

# Ledi Qaqa və Cennifer Lopes Baydeninin andiçmə mərasiminə qatılacaqlar

Dünyaca məşhur ulduzlar olan Ledi Qaqa və Cennifer **Lopes ABŞ-ın yeni prezidenti Cozef Baydeninin andiçmə mərasimində iştirak edəcək. Bir sıra nüfuzlu və etibarlı KİV-lərin yaydığı məlumatda deyilir ki, ABŞ-da C.Baydenin yanvarın 20-də keçiriləcək adiçmə mərasimində iştirak edəcək ulduzların adları açıqlanıb. ABC telekanalının yaydığı məlumatda isə qeyd olunur ki, mərasimdə Ledi Qaqa dövlət himnini oxuyacaq. Cennifer Lopes isə ayrıca çıxış edəcək.**



Xatırladaq ki, Ledi Qaqa hələ Baydenin seçki kampaniyası dövründə onu dəstəklədiyini açıqlamışdı. Cennifer Lopes da Baydenə dəstək verəcəyini elan etmişdi.

Bundan başqa, mərasimdən sonra bir çox məşhur sənətçi 90 dəqiqəlik televiziya proqramında iştirak edəcək. Con Bon Jovi, Demi Lovato, Castin Timberleyk və digər ulduzların iştirak edəcəyi proqramı Tom Henks aparacaq.

# Hadisə bu xəstəlikdən əziyyət çəkir



Müğənni Hadisə koronavirusdan sağalsa da,başqabir xəstəliyə tutulub. Bu barədə müğənni özü məlumat paylaşıb. O bildirib ki, koronavirusdan sağalsa da, indi də panik pozuqluqdan əziyyət çəkir.

"Bu mənim üçün çətin bir müddət oldu. Xəstəxanaya yerləşdirilmədim. Lakin koronavirusu daha ağır keçirən insanların xəstəxanalarda ölümlə-həyat arasında mübarizə apardığını görəndə şükür etdim. İki həftə öz evimdə tək qaldım, demək olar ki, dörd həftə boyunca dayanmadan öskürdüm. Başım çox pis ağrıyırdı. Xəstəliyin 5-ci günündə dadbilmə və iybilmə təmamilə itdi.

Məni məhv edən qorxu idi. Televiziyada davamlı izlədiyim qorxulu görüntülər məni psixoloji gərginliyə salıb. Öskürək səsimə təsir edəcəkmi, oxuya biləcəyəmmi?, kimi dəli suallar məni məhv edirdi. Xoşbəxtlikdən koronavirusdan sağaldım, ancaq panik pozuqluq qaldı"./Sfera.az

# "WhatsApp" messencerində yeni funksiya



***"WhatsApp" messencerində böyükhəcmli mesaj massivi ilə işləməyi asanlaşdıracaq "Read Later" (sonra oxumaq) funksiyası istifadəyə veriləcək. "İki sahil" xarici mediaya istinadən xəbər verir ki, yeni funksiya "Archive" (arxiv) funksiyasını əvəz edəcək. Yeni funksiya messencerin "Android" üçün versiyalarında beta sınaqdan keçirilir. Tezliklə başqa platformalar üçün də əlçatan ola bilər.***

Əvvəllər arxivləşdirmə vaxtı istifadəçiyə mesaj göndərilməsi dayandırılırdı, indi isə bölmə yuxarıda bərkidiləcək, istifadəçilər mesajları həmin bölmədə görə biləcək, amma bildiriş gəlməyəcək.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600